

## Dayanıqlı sosial-iqtisadi tərəqqinin göstəricisi: demoqrafik inkişaf

8

# SÖZÜ İMZASI QƏDƏR DƏYƏRLİ LİDER!

2



*Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur.*

Səs
№ 121 (6562) 9 iyul 2022-ci il. Qiymәti 60 qәpik

# Xankəndidən və Qərbi Zəngəzurdan barıt qoxusu gəlir!

*44 günlük müharibədən sonra Azərbaycanın qalibiyyəti fonunda kapitulyasiyaya imza atmış Ermənistan regionda sülhün və sabitliyin əldə olunması istiqamətində atılan addımları hər vəchlə uzatmağa, prosesi ləngitməyə cəhdlər göstərir. İravanın spekulyativ oyunbazlıqları isə əslində tam səngiməmiş gərginliyi daha da artırmaqdadır.*



8

## Qurban bayramı Allaha sonsuz sevgi, dərin etiqaddır




4

## Milli teatrımızı necə inkişaf etdirə bilərik?



12

## İsrailli ekspert: "Şuşaya səfər zamanı mən erməni vəhşiliyinin və vandalizminin nəticələrini gördüm"




*Bu günlərdə 400-dən çox diplomat, dünya ölkələrinin liderləri, Nobel Mükafatı laureatları və başqa şəxslər qlobal dünya nizamına təhdidləri müzakirə etmək üçün Bakı Qlobal Forumunda toplaşmışdı.*

3

## Tutduğu yola, əqidəsinə sadiq qalan 31 yaşlı "İki sahil"ə oxucu məhəbbəti böyükdür

10

VAHİD AZƏRBAYCAN UĞRUNDA
iki sahil 31 il
GÜNDƏLİK İCTİMAİ SİYASİ QƏZET
1991 - 2022

*Bu gün "İki sahil"in səhifələrində azad Qarabağda, azad Şərqi Zəngəzurda həyata keçirilən nəhəng infrastruktur layihələri, görülən quruculuq işləri öz əksini tapır.*



## "Ermənistanın sülhə getməkdən başqa yolu yoxdur"

"Üçtərəfli bəyanat imzalandıqdan sonra əsas vasitəçi moderator olaraq Rusiya iştirak edirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Naqif Həmzəyev deyib...

9



## "Çelsi" bu futbolçu ilə müqavilə imzalayacaq

*"Çelsi" "Mançester Siti"nin futbolçusu Natan Akeni transfer etməyə hazırlaşır. Bu barədə "The Times" məlumat yayıb. London təmsilçisi artıq "şəhərlilər"lə danışıqlarda irəliləyiş əldə edib.*

16



## "Avropa İttifaqının rəhbərliyi Zəngəzur dəhlizinin açılmasını istəyir"

8

*"Avropa İttifaqı və Azərbaycan arasındakı münasibətlər, xüsusilə də son dövrlərdə ayrıca inkişaf yolu keçməkdədir.*

*Qədim yunan filosofu Demokrit həmvətənlərini inandırırdı ki, söz əməlin kölgəsidir. Yəni dediyin sözün qiyməti görəcəyin əməldən asılıdır. Əlbəttə, qədim yunanlının bu kəlamı aksiomdur, yəni isbata ehtiyacı yoxdur. İnsanlar da həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev də ölkənin rəhbəri kimi fəaliyyəti ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir.*

# SÖZÜ İMZASI QƏDƏR DƏYƏRLİ LİDER!



## İLHAM ƏLİYEV: "Postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir"

TƏHLİL

Şəxsi keyfiyyətləri, siyasi uzaqgörənliyi və reallığa uyğun çevik qərarlar qəbuletmə bacarığı sayəsində cəmiyyətin bütün zümrələrini ətrafında birləşdirən İlham Əliyev 2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində də xalqın böyük dəstəyini qazanmış və Azərbaycanın siyasi və beynəlxalq arenada mövqelərinin daha da möhkəmlənməsinə və bir sıra vacib sahələrdə mühüm uğurlara imza atmasına nail olmuşdur.Bunu Prezident İlham Əliyev son 19 illik fəaliyyəti, ən vacib məqam isə xalqımızın 30 illik yurd həsrətində olan xalqımız "Dəmir yumruq" siyasəti ilə 44 gün ərzində Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı ilə "Qarabağ Azərbaycandır"mıza qovuşdu. Dövlət başçısı bütün çıxışlarında, görüşlərində dönə-dönə vurğulayıb ki, bu gün postmünaqişə gündəliyinin formalaşmasında Azərbaycan öz sözünü deyir və bu söz həlledicidir. Amma bununla bərabər, biz heç bir qeyri-real tələb də irəli sürmürük.Prezident İlham Əliyev elə ötən ay Zəngilan rayonunun Ağalı kəndində ictimaiyyətin nümayəndələri ilə görüşdə çıxış edərkən bildirib ki, ərazi bütövlüyümüzü tanıyın, gəlin sərhədləri müəyyən edək, hərə öz ölkəsində yaşasın, bir-birinin işinə qarışmasın: "Biz bunu deyirik və mənim tərəfimdən irəli sürülmüş sülh müqaviləsi üçün 5 əsas prinsipin mahiyyəti də budur. O cümlədən bir-birinə qarşı ərazi iddialarından əl çəkmək prinsipi də böyük önəm daşıyır və Ermənistan rəhbərliyi bu 5 prinsipi qəbul edib. İndi nə isə əlavə etmək istəyir, amma əsas fundamental prinsiplər budur". Ermənilərin Azərbaycanda, o cümlədən, Qarabağ bölgəsində yaşaması məsələsinə toxunan Prezident İlham Əliyev deyib ki, burada heç bir problem yoxdur: "Azərbaycan çoxmillətli, çoxkonfessiyalı bir ölkədir. Azərbaycanda bütün xalqların nümayəndələri rahat yaşayırlar, bütün hüquqlardan istifadə edirlər. Heç vaxt Azərbaycanda milli, dini zəmində ayrı-seçkilik olmayıb və olmayacaq. Ona görə Azərbaycanda yaşayan ermənilərin hüquqları, təhlükəsizliyi Azərbaycanda yaşayan digər xalqların təhlükəsizliyi, hüquqları qədər önəmlidir. Burada hansısa xüsusi imtiyazdan söhbət gedə bilməz".

### "BU GÜN DÜŞDÜYÜ DALANDAN ÇIXA BİLMƏK ÜÇÜN ERMƏNİSTANIN YEGANƏ XİLAS YOLU AZƏRBAYCANIN TƏKLİF ETDİYİ SÜLH MÜQAVİLƏSİNİ İMZALAMAQ, ƏMƏKDAŞLIQ MÜNASİBƏTLƏRİ YARATMAQDIR"

Bu gün düşdüyü dalandan çıxa bilmək üçün Ermənistanın yeganə xilas yolu Azərbaycanın təklif etdiyi sülh müqaviləsini imzalamaq, əməkdaşlıq münasibətləri yaratmaqdır. Bu, həm də Ermənistanın imzasının olduğu üçtərəfli bəyanatların şərt və tələbləridir. İndi Ermənistanda bu bəyanatlardan irəli gələn şərtlərin yerinə yetirilməsi, xüsusən də Zəngəzur dəhlizinin açılması, Qarabağda qalan ermənilərin ya köçməsi, ya da Azərbaycan vətəndaşlığını qəbul etməsi qarşısıalınmaz prosesdir. Ermənistanın "Qrapa-rak" nəşri yazır ki, İrəvanın dediklərinə baxmayaraq, Zəngəzur dəhlizinin açılması istiqamətində fəal iş gedir: "Məlum olduğu kimi, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın 9-cu bəndi regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokadadan çıxarılmasını nəzərdə tutur. Burada qeyd edlir: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin Sərhəd Xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək. Ermənistan səlahiyyətliləri blokadadan çıxarılmış yolların hardan keçəcəyini, yəni Azərbaycandan Türkiyəyə və əksinə hansı yollarla bağlanacağını açıqlamağa tələsməsələr də, Zəngəzurda 4-5 yol variantının müzakirə olunduğunu deyirlər, bununla azərbaycanlıların Ermənistan ərazisindən sərbəst hərəkət etməsinə icazə verəcəklər. Ola bilər beş yolun hamısı, ola da bilər birikisi işə salınsın, səlahiyyətlilər hələlik bunu açıqlamır. Biri Qubadlı-Bazarçay-Xot yolu, digəri Biçənək (Naxçıvan)-Kəlbəcər istiqamətidir. Üçüncüsü, dövlətlərarası avtomobil yolu Sisianın Noravan kəndindəki kəsişmədən Naxçıvan və Kəlbəcərlə birləşir. Dördüncü yol Qubadlı-Laçın istiqamətidir, Xınzırək kəndinin yaxınlığından keçir. Həmçinin Laçından Kəlbəcərə gedən yolun, eləcə də Cermukdan Kəlbəcərin yuxarı hissəsinə qədər olan hissənin tikintisindən danışılır".

Zəngəzur dəhlizindən keçən dəmir yolunun marşrutu isə ötən ildən razılaşdırılıb. Erməni mediası qeyd edir ki, dəhlizin açılmasında xüsusi maraqlı tərəflərdən biri Rusiya olduğundan, Ermənistan prosesə müqavimət göstərə bilmir. Bunu rusiyalı politoloq, Siyasi Araşdırmalar Mərkəzinin direktoru Sergey Markov da təsdiq edir. Onun sözlərinə görə, Zəngəzur dəhlizinin açılması nəqliyyat axınının intensivliyini xeyli artıracaq: "Bu, Rusiya üçün də çox faydalıdır. Çünki onun açılması nəticəsində Türkiyə ilə Rusiya bir-biri ilə Azərbaycan - Zəngəzur dəhlizi vasitəsilə əlaqə yaradacaq". Rusiyalı politoloq regionda beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılmasından sonra bölgədə vəziyyətin necə dəyişəcəyindən də danışıb: "Şimal-Cənub" və "Qərb-Şərq" nəqliyyat dəhlizlərinin inkişafı qlobal iqtisadiyyatın Xəzər regionu ilə bağlılığını əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

### PREZİDENT İLHAM ƏLİYEVİN İRƏLİ SÜRDÜYÜ SÜLH MODELİ TƏKCƏ AZƏRBAYCAN DEYİL, BÜTÜN REGİON DÖVLƏTLƏRİNİN TƏHLÜKƏSİZLİYİ VƏ İNKİŞAFI ÜÇÜN AÇAR ROLUNU OYNAYIR

Qeyd edək ki, mayın 22-də Avropa İttifaqının vasitəçiliyi ilə Brüsseldə baş tutan Ermənistan və Azərbaycan liderlərinin görüşü tərəflər arasında sülh prosesində çox əhəmiyyətli mərhələ oldu. Sammitin nəticələri göstərir ki, bu formatda aprelin 6-da keçirilən sonuncu görüşdən ötən dövr ərzində mühüm irəliləyişə nail olunub. Bu səbəbdəndir ki, Azərbaycan sülh prosesində qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir. Ermənistan rəhbərliyi isə qarşısına qoyduğu öhdəliklərə tam və vaxtında əməl etmədi. Sərhəd komissiyasının yaradılması cəhdi aprelin 6-da razılaşdırıldığı kimi, həmin ayın sonuna qədər baş tutmadı. Bunun əsas səbəblərindən biri də Ermənistan rəhbərliyinə daxildən və xaricdən təzyiq edən qüvvələri, əvvəlki kriminal rejimin qalıntıları, radikal diaspor təşkilatlarını və onlara havadarlıq edən dövlətləri göstərmək olar. Xüsusi olaraq, bir daha vurğulamaq istərdim ki, Prezident İlham Əliyevlə bütün görüşlərdə olduğu kimi, Paşinyan aprelin 6-da Brüsseldə keçirilən görüşü zamanı da zərbə aldı. Paşinyan bunu bilməlidir ki, bütün müqavimət cəhdləri növbəti yeni zərbə ilə nəticələnəcəkdir. Ermənistan bunu nə qədər tez anlasa, bir o qədər yaxşı olar. Əgər Ermənistan bunu danışıqlar yolu ilə anlamasa, o zaman "Dəmir yumruq" yenidən işə düşə bilər.

### AVROPA İTTİFAQI AZƏRBAYCANIN MÜƏYYƏNLƏŞDİRDİYİ GÜNDƏLİYİ, REALLIQLARI QƏBUL EDİR

Qeyd edək ki, elə bu günlərdə - iulun 4-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycan Prezidenti İlham Əliyevə zəng etməsi respublikamızın Cənubi Qafqazda söz sahibi və lider dövlət olmasından xəbər verir. Çünki Şarl Mişel Cənubi Qafqazda sabitlik, sülh və təhlükəsizliyin təmin olunmasını məhz dövlət başçımızla müzakirə edib, onunla məsləhətləşib. Söhbət zamanı Brüssel gündəliyinə aid məsələlər müzakirə olunub. Qeyd edək ki, bundan əvvəl Şarl Mişelin təşəbbüsü ilə Belçikanın paytaxtı Brüsseldə keçirilən üçtərəfli görüşdə də Cənubi Qafqazda sülh və əməkdaşlıq məsələləri müzakirə olunmuşdu. Şarl Mişel Cənubi Qafqazda sabitlik, sülh və təhlükəsizliyin təmin olunmasının Avropa İttifaqı üçün vacibliyini vurğulamışdı. O, Avropa İttifaqının Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində səylərini davam etdirəcəyini bildirmişdir. Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü və iştirakı ilə keçirilmiş üçtərəfli görüşləri, bu çərçivədə əldə olunmuş razılaşmaları qeyd edərək, ölkəmizin Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması, sərhədlərin delimitasiyası və demarkasiyası, nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində danışıqların real nəticələrə gətirib çıxarılacağına ümidvar olduğunu ifadə etdi. Çünki Azərbaycan Prezidenti İlham Əliyev regionda yeni reallıqların müəllifidir və postmünaqişə mərhələsinin ümumi geosiyasi mühitinin formalaşmasında əsas söz sahibidir və mövcud regional geosiyasi vəziyyəti obyektiv qiymətləndirir. O cümlədən regional əməkdaşlıq, sabitlik və inkişaf üçün vacib təşəbbüslər göstərir. Azərbaycan Ermənistanla sülh sazişi imzalanmasının, sərhədlərin müəyyənləşdirilməsinin, regionda kommunikasiya xətlərinin, həmçinin Zəngəzur dəhlizinin açılmasının tərəfdarıdır. Bütün bunların fonunda Brüssel görüşü və onun nəticələri böyük önəm kəsb edir. Göründüyü kimi, Avropa İttifaqı Azərbaycanın müəyyənləşdirdiyi gündəliyi, reallıqları qəbul edir.

**RƏFİQƏ HÜSEYNOVA**

# İsrailli ekspert: "Şuşaya səfər zamanı mən erməni vəhşiliyinin və vandalizminin nəticələrini gördüm"

***Bu günlərdə 400-dən çox diplomat, dünya ölkələrinin liderləri, Nobel Mükafatı laureatları və başqa şəxslər qlobal dünya nizamına təhdidləri müzakirə etmək üçün Bakı Qlobal Forumunda toplaşmışdı. AZƏRTAC xəbər verir ki, Bakı Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin və "İsraildə Azərbaycan Evi"nin icraçı direktoru, beynəlxalq münasibətlər sahəsində ekspert Arye Qut "Thej.ca" Kanada-İsrail media-platformasına müsahibəsində bu barədə danışıb.***

İsrailli ekspert vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyev Bakı Qlobal Forumunda çıxışında deyib: "Biz sülhü seçdik. Çünki biz Cənubi Qafqazda sabit, dayanıqlı inkişafı görmək istəyirik. Bu, nadir fürsətdir. Cənubi Qafqaz üç Cənubi Qafqaz ölkəsinin müstəqillik illəri ərzində parçalanmışdır. Ermənistanın işğalı səbəbindən o, 30 il ərzində parçalanmışdır. İndi sülh, əməkdaşlıq yaratmaq vaxtıdır və Azərbaycan bunun üzərində çalışır.

Ermənistanla münasibətlərin normallaşması prosesinə gəlincə, biz sülh razılaşması üzərində çalışmağa başlamağı təklif etdik. Ermənistan cavab vermədi".

Prezident Əliyevin sözlərinə görə, "Sonra biz daha bir addım atdıq. Biz hər iki ölkənin sərhədlərinə və ərazi bütövlüyünə qarşılıqlı hörmət etmək və tanımaq, indi və gələcəkdə hər hansı bir ərazi iddialarından qarşılıqlı şəkildə çəkinmək prinsipi də daxil olmaqla, beynəlxalq hüququn beş əsas prinsipini və bizim təklifin əsasını təşkil edən başqa prinsipləri də irəli sürdük. Bu beş prinsipin Ermənistan hökuməti tərəfindən qəbul edilməsi bizi məmnun etdi. Beləliklə, bu, müsbət dinamikadır. Lakin indi biz praktiki icraya keçməliyik. Çünki işğal vaxtının tarixindən bildiyimizə əsaslanaraq danışıqlar aparərkən bəzən Ermənistan rəsmiləri tərəfindən hətta yüksək səviyyədə ifadə edilmiş sözlərin o qədər də böyük məna daşımadığını bilirik".

Azərbaycan Prezidenti deyib: "Çünki bizə addımların atılması lazımdır. Azərbaycan artıq öz tərəfindən sülh razılaşması üzrə komissiyasını yaradıb və biz eyni addımın Ermənistan tərəfindən atılmasını da gözləyirik. Bu addım atılan kimi və ya atılan təqdirdə danışıqlar başlayacaqdır. Biz, həmçinin sərhədimizin delimitasiyasına başlanılması ilə bağlı təklif irəli sürdük. Çünki sərhədimizin ən böyük hissəsi də işğal altında idi və orada heç vaxt delimitasiya aparılmamışdır. Buna görə də bu proses də başlanılıb və Azərbaycan-Ermənistan sərhəd komissiyasının birinci birgə iclası keçən ay sərhəddə baş tutmuşdur".

Azərbaycan Prezidenti sülh məramına sübut kimi Ermənistanı Zəngəzur dəhlizini açmağa çağırıb: "Biz kommunikasiyaların açılması ilə bağlı Ermənistanın 2020-ci il 10 noyabr tarixində imzalanmış Üçtərəfli Bəyanata əməl edəcəyini gözləyirik ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqəsi olsun. Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından bəri bir il yarımdan çox vaxt keçib, lakin, əfsuslar olsun ki, indiyədək heç bir çıxış təmin olunmayıb. Bu, qəbuledilməzdir. Birincisi, bu, Ermənistan tərəfindən Üçtərəfli Bəyanatın müddəalarının pozulmasıdır və bu, regionda sanki bir disbalans yaradır. Çünki eyni Bəyanata əsasən, Azərbaycan Ermənistandan Azərbaycanın erməni əhalisinin yaşadığı Qarabağ bölgəsinə maneəsiz çıxışın təmin olunması üçün üzərinə öhdəlik götürdü. Beləliklə, bir il yarımdır ki, ermənilər Laçın yolundan istifadə edirlər və maneəsiz əlaqəyə malikdirlər. Azərbaycanlılar isə Ermənistan ərazisindən keçən yoldan, bizi Naxçıvanla birləşdirən Zəngəzur dəhlizindən istifadə edə bilmirlər".




Azərbaycan dövlət başçısı deyib: "Zəngəzur dəhlizinin açılması məsələsinin ən qısa zamanda həlli gələcək regional sülhün fundamental elementlərindəndir. Əgər bizə bu əlaqə yolu təqdim edilməyəcəksə, sülh haqqında danışmaq çətin olacaq və Azərbaycanın Ermənistanla birgə yaşayış və normal qonşuluq münasibətlərinin qurulmasına yönəlmiş bütün səyləri uğursuz olacaq. Bir daha qeyd etmək istəyirəm ki, bu, vacib məsələdir, Azərbaycanın bunu tələb etməyə haqqı var. Birincisi, Ermənistan hökuməti müvafiq Bəyanatı imzalayıb. İkincisi, Azərbaycan müharibədə qalib gəlib və işğaldan əziyyət çəkmiş ölkə olaraq bizim bunu tələb etməyə mənəvi haqqımız var".

Bakı Qlobal Forumunda fəal iştirak etmiş israilli siyasi icmalçı və ictimai xadim, professor Arye Qut bu tədbir çərçivəsində Azərbaycanın mədəni paytaxtı Şuşa şəhərinə səfər edib. Arye Qutun sözlərinə görə, erməni qoşunları 30 il bundan əvvəl Şuşanı ələ keçirə bilmişdi. Şuşa şəhərinin və Şuşa rayonunun 30 kəndinin işğal edilməsi nəticəsində 195 dinc sakin həlak olub, 165 nəfər yaralanıb, 58 adam itkin düşüb. Şəhərin 24 mindən çox sakini etnik təmizləməyə məruz qalıb. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanın Milli Qəhrəmanı, milliyyətcə yəhudi olan 23 yaşlı Albert Aqarunov məhz Şuşa şəhərinin müdafiəsi zamanı erməni snayperləri tərəfindən öldürülüb. Albert qısa, lakin qəhrəman kimi şərəfli ömür sürüb. Azərbaycanda onu sevir və ehtiramla yad edirlər. Albert əsl qəhrəman və yəhudi xalqının mərdlik nümunəsidir. Azərbaycanlılar onun xatirəsini daim yad edəcəklər. İgid tankçı zabitin dostlarının sözlərinə, Albert Aqarunov öz ölkəsinə sadiq olub və Azərbaycanın ərazi bütövlüyü uğrunda mərdliklə həlak olub.

"İsraildə Azərbaycan Evi"nin icraçı direktoru deyib: "Çox maraqlı olan bu səfər böyük Qarabağın gözəlliyini seyr etməyə və həqiqi qürur hissi keçirməyə, eyni zamanda Şuşaya gedən yolda erməni faşistlər tərəfindən törədilmiş dəhşətləri və dağıntıları görməyə imkan verib. Biz 30 illik erməni işğalı dövründə Azərbaycanın üzləşdiyi məşəqqətlərin izlərini gördük. Bu kütləvi dağıntılar Ermənistanın siyasi rejimi tərəfindən 30 illik işğal dövründə törədilmiş vəhşiliyin və vandalizmin, ekosid və şovinizmin, insana nifrət siyasətinin nəticələridir".

İsrail-Azərbaycan diaspor təşkilatının rəhbəri daha sonra vurğulayıb: "Azərbaycanın incisi olan Şuşa təqribən 30 il erməni işğalında qalıb. Azərbaycanlılar həmişə fəxr ediblər ki, Azərbaycan incəsənətinin, mədəniyyətinin və musiqisinin parlaq nümunələri olan Üzeyir Hacıbəyli, Bülbül və Rəşid Behbudov, Natəvan və Vaqif, Xan Şuşinski və Şəmsi Bədəlbəyli, Cabbar Qaryağdıoğlu və Niyazi Şuşada doğulublar. Bu insanlar üçün Şuşa şəhəri xüsusi əhəmiyyət kəsb edir. Şuşa illər boyu tənha, yetim qalıb, işgəncələrə və təhqirlərə məruz qalıb. Şuşa həqiqətən Azərbaycan musiqisi, "Bayatı Şiraz" səslənən dövrlər üçün darıxmışdı. Arye Qut onu da əlavə edib ki, sovet dövründə Şuşa kurort şəhəri idi.

Professor Qut vurğulayıb: "İşğal illərində Şuşada praktiki olaraq ana dili eşidilmirdi. Hədsiz gözəl olan Şuşa ətrafda hər şeyin vəhşicəsinə dağıdılması ilə üzləşdi. Lakin vaxtilə burada yaşayan insanlar Şuşanın parlaq və unudulmaz keçmişini yaddan çıxara bilməzdi. Təsvirəgəlməz itki ağrısı, nostalji duyğular Şuşanın əzəli sakinlərinin qəlbində kök salmışdı. Beynəlxalq səviyyədə Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınmış Qarabağ və yeddi ətraf rayon Birinci Qarabağ müharibəsi dövründən Ermənistanın sərt nəzarəti altında olub. İki il bundan əvvəl İkinci Qarabağ müharibəsinin gedişində Azərbaycan əsgər və zabitlərinin nümayiş etdirdiyi mərdlik və igidlik sayəsində Bakı Qarabağın tarixi Azərbaycan ərazilərini öz qanuni sahiblərinə qaytardı. Bu gün Şuşa şəhəri döyüş meydanından turizm obyektinə çevrilir. Bu, Azərbaycanın həmin ərazilər üzərində əbədi hakimiyyətinin möhkəmləndirilməsi üzrə strateji planın mühüm tərkib hissəsidir.

Arye Qut qeyd edib ki, Azərbaycan işğaldan azad edilmiş əraziləri reinteqrasiya və rekultivasiya etməyə, onları özünün enerji sistemine və yol şəbəkəsinə qoşmağa çalışır.

Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatına görə, 1990-cı illərin əvvəlində müharibə gedişində Qarabağı tərk etməyə məcbur olmuş 750.000 azərbaycanlının bir qismi artıq gələn il doğma yurdlarına qayıda biləcək. Şuşa şəhərinin keçmiş sakinlərinin oraya köçürülməsi isə bir qədər çox vaxt tələb edə bilər. Azərbaycan Respublikasının Prezidentin Şuşada nümayəndəsi Aydın Kərimov bildirib ki, yaşayış evlərinin oraya qayıdan sakinləri qəbul etməyə hazır olması təxminən il yarım vaxt tələb edə bilər, lakin ilk turistlərin artıq gələn il buraya gəlməsi gözlənilir. Şuşa Qarabağdır, Qarabağ Azərbaycandır!

# "Dünya Azərbaycanı qalib və ədaləti bərpa etmiş ölkə kimi tanıyır"




"Dünyanın hər bir guşəsində azərbaycanlılar yaşayır. İkinci dəfə qazanılmış müstəqilliyimizin ilk illərində dövlət rəhbərliyində olanlar dünyada yaşayan həmyerlilərimizi unutmuşdu. Məhz xaricdə yaşayan həmyerlilərimizə laqeyd münasibət göstərməsindən sui-istifadə edən ermənilər uzun illər formalaşdırılmış diasporanın gücü ilə beynəlxalq arenada anti-azərbaycan fəaliyyətini aparır, dünya ictimaiyyətini yalan məlumatlara inandırmışdı. Amma 2003-cü ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasının rəhbərliyinə qayıtması ölkə daxilində dövlət sütunlarını möhkəmlətdiyi kimi xaricdə yaşayan həmvətənlilərimizlə də koordinasiya olunmuş fəaliyyətin təşkilinə başlanıldı. Ulu Öndərin bütün xarici səfərlərində o ölkələrdə yaşayan həmyerlilərimizlə görüşür və onlara öz tövsiyələrini bildirirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Badamov deyib.

Onun sözlərinə görə, nəhayət 2001-ci ildə Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayında xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmlənməsini təmin etmək məqsədilə xüsusi dövlət qürumun yaradılması ideyasını irəli sürüldü və 5 iyul 2002-ci ildə Ulu Öndər Heydər Əliyevin fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi yaradıldı: "Məhz belə dövlət qurumu yaradıldıqdan sonra dünyada yaşayan azərbaycanlılarla koordinasiya olunmuş iş aparılmağa başlandı. Ulu Öndərin əsası qoyduğu diaspor fəaliyyəti Prezident İlham Əliyev tərəfindən daha da genişləndirildi. Bu illərdə keçirilmiş Dünya Azərbaycanlıların Qurultaylarında dünya azərbaycanlıları qarşısında müəyyən vəzifələr qoyuldu, hədəflər müəyyənləşdirildi.

Müxtəlif ölkələrdə diaspor təşkilatları yaradıldı. Həmin təşkilatlara həmyerlilərimiz dəvət olunaraq təşkilatlanmış iş aparılmağa başlandı. Məhz Leyla xanım Əliyevanın rəhbərliyi altında diaspor təşkilatlarımız müxtəlif ölkələrdə çoxlu tədbirlər keçirdi. Dünyaya Azərbaycanın həqiqətlərini tanıdıldı. Deyə bilərik ermənilərin lobbi fəaliyyətini nokaut vəziyyətinə salındı və dünya erməninin iç üzünü tanımağa başladı. Təbii ki, bizə erməninin işğalçı və vandalist üç üzünü tanıtmaq vacib idi".

Deputat sözlərinə belə davam edib: "44 günlük Vətən müharibəsi zamanı da diasporalarımız tərəfindən bir çox ölkələrdə tədbirlər təşkil edilmiş, müharibənin aparılması uzun illər pozulmuş ədalətin bərpasına əsaslandığını dünya ictimaiyyətinə çatdırılmışdır. Bu gün Diasporla İş üzrə Dövlət Komitəsinin yaranmasının 20 ili qeyd olunur. Bu 20 ildə dünyada yaşayan azərbaycanlılar arasında milli birlik və həmrəylik yaradılaraq beynəlxalq informasiya müharibəsində ermənilərin yalan informasiya maşınını sındırıldığını deyə bilərik. Artıq Azərbaycanı dünya qalib və ədaləti bərpa etmiş ölkə kimi tanıyır. Xaricdə yaşayan hər bir azərbaycanlı qalib ölkənin soydaşları olaraq başını dik tutaraq qürurla gəzir, azərbaycanlı olmağıyla fəxr edir."

***Ayşən Vəli***

# Qurban bayramı Allaha sonsuz sevgi, dərin etiqaddır




***İslam dünyasının ən müqəddəs bayramlarından olan Qurban bayramını xalqımız işğaldan azad olunmuş ərazilərimizdə, Zəfər qazanmış Azərbaycanda qeyd edir. Ötən il olduğu kimi, bu il də Şuşamızda, Ağdamda, Zəngilanda və digər ərazilərimizdə qurbanlıqlar kəsiləcək. 30 ilə yaxın işğal altında qalan ərazilərimizdə xalqımızın milli-mənəvi dəyərlərinə uyğun olaraq Qurban bayramının keçirilməsi hər kəsi qürurlandırır. Xeyirxahlığın, bərabərliyin və fədakarlığın simvoluna çevrilən Qurban bayramını xalqımız qalib bir xalq olaraq qeyd edir. Tolerant mühitdə, multikultural dəyərlərə önəm verildiyi bir dövlətdə. Əlbəttə ki, bu xalqımızın böyük dəyərlərə sahib olmasının daha bir göstəricidir.***

Bu bayram bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur. Bildiyimiz kimi, sovet hakimiyyəti dövründə din və dini ayinlər, bayramlar da tənqid hədəfi olmuşdur. Azərbaycan müstəqilliyə qovuşduqdan sonra xalqın dininə, milli ənənələrinə, milli və dini bayramlarına hörmət və diqqət yetirilməyə başlandı. Qurban bayramı ən qədim bayramlardandır. Dini qurbankəsmə mərasimi islamdan da əvvəl mövcud olub, lakin o vaxtlar bu, günahdan təmizlənmək, qəzəblənmiş Allahın könlünü almaq məqsədilə yerinə yetirilirdi. Belə ki, dini qurbankəsmə islam aləmində böyük ruh yüksəkliyi, dindarlıq, xeyriyyəçilik, başqalarına kömək etmək kimi əlamətlərə yiyələndi. İslamda bu ayin xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur. İnsanları halallığa, paklığa səsləyən Qurban bayramının çox maraqlı tarixi və şərtləri var. Allaha qəlbən yaxın və sadiq olduğunu sübut etmək istəyən İbrahim peyğəmbər oğlu İsmayılı qurban kəsməyə hazır idi. Lakin uca Allah bunu öz elçisinə rəva bilmədi və qurbanlıq üçün ona bir qoç göndərdi. Buna görə də Qurban bayramında kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər. İbrahimin qoca yaşında Allah ona bir oğlan uşağı - İsmayılı nəsib etmişdi. Çox sevdiyi balasını Allah yolunda qurban verməyə hazır olması peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha inamın, dərin etiqadın nümunəsidir. Bu hadisə onu göstərir ki, insanlar Allahı sonsuz imanla sevməli və öz sevgilərində bu cür səmimi olmalıdırlar. Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, islam dinində insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmuşdur. İslama qədər bir çox dinlərdə insanları qurbanvermə ayinlərinə rast gəlmək mümkündür. Məsələn, atəşpərəstlər insanı odda yandırırdılar. Onlar bu yolla guya Allaha yaxın olduqlarını göstərirdilər. Qədim Çində də insanları tanrılara qurban vermək adəti var idi. Bu ölkədə təbii fəlakətlərdən, daşqınlardan hifz olunmaq üçün uşaqları suya atırdılar. İnsan Allahın yaratdığı ən şərəfli və ən üstün məxluqdur. Allah özünün yaratdığını özü yolunda qurban kəsilməsini qəbul etmir. Dünya xalqlarına nümunə olan Azərbaycan multikultural dəyərləri ilə də dünyaya öz modelini nümayiş etdirir. Mənsubiyyətindən, irqindən asılı olmayaraq, bütün insanların sərbəst fəaliyyət göstərdiyi tolerant Azərbaycan. Bu fikirlərin arxasında Azərbaycan həqiqətləri, gerçəkliklərimiz dayanır. Əgər ölkəmizdə 2200-dən artıq məscid, 13 kilsə, 7 sinaqoq və digər ibadət yerləri fəaliyyətdədirsə, demək bu, artıq Azərbaycanda tolerant mühitin mövcudluğunu tam əsaslandırır. Ölkədə olan hər bir millətə - ruslara, molokanlara, yəhudilərə, tatlara, saxurlara, udilərə sərbəst yaşama və dinc həyat tərzi sürməsi üçün geniş imkanlar yaradılıb. Tariximizə diqqət etsək görərik ki, dünyanın ən qədim məscidlərindən olan Şamaxı məscidi bizim məkanda hələ 743-cü ildə tikilib. Şəkidə olan Qafqaz Albaniyası kilsəsi tarixin daş abidəsinə çevrilib. Bu gün ölkə ərazisində olan dini abidələrə dövlətimiz tərəfindən diqqət və qayğı var. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində qeyd etdiyi kimi, Azərbaycan dövləti tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir: "Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən tikilmişdir. Beləliklə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir".



Qeyd edək ki, işğal altındakı torpaqlarımızda olan 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Tezliklə dini abidələrimiz təmir və bərpa olunacaq, yeni məscidlər istifadəyə veriləcəkdir. Artıq bu işlərə başlanılıb. İşğaldan azad olunan Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təməli qoyulan yeni məscid dini ocaq və modern memarlıq nümunəsi olacaq.

**"QURBAN BAYRAMI İSLAM DİNİNİN BƏŞƏRİYYƏTƏ MƏNƏVİ-ƏXLAQİ QURTULUŞ YOLU KİMİ GÖNDƏRİLMƏSİ İLƏ ƏLAMƏTDARDIR"**

Azərbaycan xalqı belə tolerant bir mühitdə Qurban bayramını qeyd edir. Mütərəqqi islami dəyərlərə bağlılığı ilə seçilən Azərbaycan xalqının əsrlər boyu, hətta ən mürəkkəb dövrlərdə Qurban bayramını özünün əziz günlərindən biri kimi qoruyub-saxlayıb. Hər il olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev xalqımızı bu müqəddəs bayram günü münasibəti ilə təbrik edib: "Sizi və Azərbaycandan kənarda yaşayan bütün soydaşlarımızı İslam dünyasının birlik, bərabərlik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm. Qurban bayramı İslam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır və müsəlmanların Allah sevgisini, haqq-ədalət naminə hər cür fədakarlığa hazır olduqlarını təcəssüm etdirir".

Cənab Prezident Azərbaycan xalqının əsrlər boyu tarixi köklərinə və adət-ənənələrinə bağlılığı ilə seçildiyini, ən mürəkkəb dövrlərdə belə, öz milli-mədəni dəyərlərini qoruyub saxladığını bildirib. Xatırladaq ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanununa əsasən, Qurban bayramı ölkəmizdə dövlət səviyyəsində bayram edilir. Hər il ölkəmizdə dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunan Qurban bayramı xeyirxahlıq və mərhəmət duyğularının təcəssümü olmaqla yanaşı, bərabərlik və dözümlülük ovqatını da insanlarda gücləndirir.

Qurban bayramının əsas mahiyyəti Allah yolunda kəsilmiş heyvanın ətini Allahın imkansız bəndələri ilə bölüşmək, onları sevindirmək və sevincinə şərik olmaqdır. Beləliklə, bu bayramın və ayinin də əsasında, xeyirxahlıq, paklıq və Allaha inam və sevgi durur. İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında, dişi heyvanların müstəsna rolu olduğuna görə, qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı, altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. İsmayıl Qurbanında kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi islamda məsləhət görülmür. Qurban kəsiləndə belə deyilməlidir: "Rəbbin üçün namaz qıl və qurban kəs!", "De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi - Allah üçündür".

Qurban bayramında hər bir imkanlı müsəlman qurban kəsib, onun ətini imkansızlara və kasıblara paylamalıdır. Quranda yazılıb: "Allaha nə ət, nə onun qanı çatmır, ancaq sizin dindarlığınız çatır". Qurban bayramı mənəvi-əxlaqi dəyərlərimizi özündə təcəssüm etdirərək, insanları hallalığa, paklığa və birliyə səsləyir. Bu günlər ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, dövlətimizin firavanlığı və tərəqqisi üçün dualar edilir və şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman övladlarımızın nurlu xatirəsini bu mübarək bayram günlərində dərin ehtiramla yad edirik.

Dövlət başçısı İlham Əliyev xalqımıza ünvanladığı məktubunda "Azərbaycanın müstəqilliyi uğrunda və əzəli torpaqlarımızın işğaldan azad olunmasında canlarını fəda edən qəhrəman şəhidlərimizin ölməz xatirəsini bir daha dərin ehtiramla yad edir, onlara Uca Yaradandan rəhmət, yaxınlarına səbir diləyirəm"- deyə bildirib. Prezident etdiyimiz dua və niyyətlərin Tanrı dərgahında qəbul olunacağına, bu mübarək bayram da xalqımıza xas xeyirxahlığın, şəfqət və mərhəmətin təntənəsinə çevriləcəyinə, cəmiyyətimizdə milli-mənəvi həmrəylik ovqatını daha da gücləndirəcəyinə ümidvar olduğunu qeyd edib.Humanizm, xeyirxahlıq və bərabərlik rəmzi olan Qurban bayramı cəmiyyətimizdə milli-mənəvi həmrəyliyi və dözümlülüyü daha da gücləndirir, insanlar arasında şəfqət və mərhəmət duyğularının təntənəsini nümayiş etdirir.Bu il bildiyimiz kimi, iyul ayının 9-10 -da Qurban bayramı qeyd olunacaq. Artıq qurbanlıq heyvan kəsimi və satışının kütləvi şəkildə toplaşmadan rahat həyata keçirilməsi məqsədilə ölkə üzrə qurbanlıq heyvanların satışı və kəsimi xidmətləri təşkil olunub. Həmin satış məntəqələrində baytarlıq nəzarətindən keçmiş və sanitar-gigiyenik tələblər gözlənilməklə kəsilmiş qurbanlıq heyvanlar sifarişçilərə təqdim olunur. Kəsdiyiniz qurbanlar qəbul olsun! Qurban bayramınız mübarək.

***Zümrüd BAYRAMOVA***

# Xankəndidən və Qərbi Zəngəzurdan barıt qoxusu gəlir!

## *Bu qoxu düşmənlərin iyləyə biləcəkləri ən son qoxu olacaq!*



***44 günlük müharibədən sonra Azərbaycanın qalibiyyəti fonunda kapitulyasiyaya imza atmış Ermənistan regionda sülhün və sabitliyin əldə olunması istiqamətində atılan addımları hər vəchlə uzatmağa, prosesi ləngitməyə cəhdlər göstərir. İrəvanın spekulyativ oyunbazlıqları isə əslində tam səngiməmiş gərginliyi daha da artırmaqdadır.***

ANALİTİK-ŞƏRH

Dəqiqləşdirilməmiş sərhəd zolaqlarında mütəmadi şəkildə Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinin atəşə tutulması, Qarabağda-Rusiya sülhməramlı kontingentinin nəzarəti altındakı bölgələrdə separatçıların əl-qollarını rahatlıqla, sallaya-sallaya gəzmələri, bununla yanaşı o ərazilərdə qanunsuz inşaat işlərinin aparılması və s. kimi hallar artıq Azərbaycan cəmiyyətində də haqlı olaraq qıcıq, hiddət hisslərini qabartmaqdadır.

### Bütün bu kimi reallıqlar Azərbaycanın növbəti qətiyyətli addım atmasına həm səbəb yaradır, həm də hüquq verir!

Həmçinin, yeni Laçın yolunun istifadəyə verilməsi günü yaxınlaşdıqca işğal dönəmində oraya yerləşdirilmiş Livan, Suriya ermənilərinin də həmin əraziləri tərk etməyəcəkləri barədə iddia etmələri mövcud situasiyanın çərçivədən çıxmasına kifayət qədər zəmin yaradır.

Belə olan halda istər-istəməz danılmaz faktor kimi bir məsələ özünü göstərməyə başlayır - regionda sülhün əldə olunmasını istəməyən çoxsaylı destruktiv qüvvələr var. Onlar Ermənistanın işğalçılıq siyasətinin davam etməsinin, habelə yeni müharibənin başlanmasının tərəfdarları olmaqla yanaşı, həm də revanşizm amilinin çiçəklənməsi yönündə bəlli erməni dairələrinə dəstəklərini göstərirlər. Əlbəttə ki, bütün bu kimi reallıqlar Azərbaycanın növbəti qətiyyətli addım atmasına həm səbəb yaradır, həm də hüquq verir!

### İsrailli politoloq Mixail Finkel: "Mən düşünürəm ki, yeni müharibə mütləq olacaq"

Mövzu ilə bağlı tanınmış İsrail politoloqu Mixail Finkel mediaya açıqlama verib və bildirib ki, proseslərin nəticəsi olaraq İrəvan destruktiv qüvvələrin dəstəyi ilə Bakı ilə sülh razılaşmasının əldə edilməsi prosesinə məhəl qoymayacaq və çox güman ki, Azərbaycanla Ermənistan arasında yeni münaqişə yaranacaq. Onun proqnozlarına görə, Bakı əslə İrəvanın artıq həddini aşmış bu oyunbazlıqlarına səbr, dözüm, təmkinlik nümayiş etdirməyəcək. Bu baxımdan, Mixail Finkelin proqnozları da maraqdoğurucudur. Misal üçün, "Mən düşünürəm ki, yeni müharibə mütləq olacaq. Revanşizm həvəsi ermənilərdə böyükdür. Hazırda regionda bir çox sürprizləri görə bilərik", istiqamətindəki fikirləri də belə deməyə əsas yaradır ki, regionda yeni sürpizlərdən biri də Qərbi Zəngəzurla bağlı ola bilər. Daha dəqiq desək, bu tarixi torpaqlarımızın geri qaytarılacağı mümkünlüyü öz mövcudluğunu qoruyubsaxlamaqdadır.

### Bu gün Ermənistanın müttəfiqləri İrəvanı hərbi-texniki cəhətdən təmin edə bilərlər, amma...

"Ermənistanın müttəfiqləri onlara çoxlu vədlər verə bilər. Onlar İrəvanı silahla təchiz etməyə və bu müharibəni aparmaq üçün resurslarla təchiz etməyə çalışa bilərlər", deyə israilli ekspert "Sovremennıy razqovor" YouTube kanalına müsahibəsində qeyd edən israilli politoloq hətta bunun müqabilində Ermənistanın heç nə əldə edə bilməyəcəyini vurğulayıb. Digər tərəfdən, bu gün Ermənistanın müttəfiqləri İrəvanı hərbi-texniki cəhətdən təmin edə bilərlər, amma fakt budur ki, 44 günlük müharibədə də həmin təminatlar var idi, sadəcə həmin müddət ərzində onlar kütləvi surətdə məhv edildilər - düşmən kapitulyasiyaya imza atması ilə öz ağır, sarsıdıcı məğlubiyyətini etiraf etdi. Və əgər bundan sonra da onlar prosesi ləngitməyə davam edəcəklərsə, əlbəttə ki, məsuliyyəti də özləri daşımalı olacaqlar. Bir sözlə, Xankəndidən və Qərbi Zəngəzurdan barıt qoxusu gəlir və bu qoxu düşmənlərin iyləyə biləcəkləri ən son qoxu olacaq!

***Rövşən RƏSULOV***

# "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş keçirilib



İyulun 8-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov "Yüksəliş" müsabiqəsinin qalibləri Ruslan Mirzəliyev, Orxan Qazı Zadə, Elçin Mirzəzadə ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, görüşdə yüksək idarəetmə və liderlik keyfiyyətlərinə malik kadrların fərdi inkişafının dəstəklənməsi və perspektiv rəhbər şəxslərin peşəkar səriştə və idarəçilik təcrübələrinin artırılmasında "Yüksəliş" müsabiqəsinin əhəmiyyəti vurğulanıb. Əhməd İsmayılov qaliblərə rəhbərlik etdiyi qurumun fəaliyyət istiqamətləri, media islahatları çərçivəsində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Media sahəsində qaliblərin fikirlərini dinləyən Əhməd İsmayılov onların mediaya dair məsələlərlə bağlı suallarını cavablandırıb, yeni təkliflər haqqında fikir mübadiləsi aparıb.

# Misirli professor: "Prezident İlham Əliyev mədəniyyət paytaxtı Şuşanın şöhrətini bərpa etdi"



Misirin Azərbaycandakı səfirliyinin keçmiş mədəniyyət attaşesi, bu ölkənin Ali Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, professor Bağdadi İmam son günlərdə İƏT-in Baş katibi Hissein Brahim Taha və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransının nümayəndələrinin Qarabağa, onun incisi olan mədəniyyət paytaxtı Şuşaya səfərləri ilə bağlı fikirlərini AZƏRTAC-ın xüsusi müxbiri ilə bölüşüb.

**- Cənab İmam, siz 2006-cı ildə Misirin Azərbaycandakı səfirliyinin mədəniyyət attaşesi vəzifəsinə çalışmısınız. Həmin dövrdə ölkəmizin regionlarına səfərləriniz zamanı təhsil və mədəniyyət tədbirlərində fəal iştirak etmişiniz. Yəqin ki, Qarabağla bağlı azərbaycanlı ziyalılarla da söhbətləriniz olub.**

- Bəli, mən Azərbaycanın bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında ölkələrimiz arasında elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın perspektivlərini müzakirə etmişəm. İstər bu görüşlərdə, istərsə də rəsmi tədbirlərdə azərbaycanlı ziyalıların, habelə sadə vətəndaşların Qarabağın işğaldan azad ediləcəyi günü səbirsizliklə gözlədiklərinin şahidi oldum. İnsanlar bütün bayramlarda arzu edirdilər ki, növbəti şənliyi Qarabağda, Şuşada keçirsinlər. Onlarda öz doğma evlərini, ata-babalarının məzarlarını yenidən görəcəklərinə böyük inam var idi. Əlbəttə, bu inam xalqın öz liderinə böyük etimadından qaynaqlanırdı. Nəhayət, o gün gəldi, Prezident İlham Əliyevin böyük sərkərdəlik məharəti və fitri siyasətçi istedadı sayəsində arzular gerçəkləşdi. Bütün İslam aləmi, o cümlədən Misir ictimaiyyəti Azərbaycan Ordusunun şanlı Qələbəsini alqışladı və torpaqlar düşmən tapdağından qurtuldu. Mən Bakıdakı dostlarımı, alimləri və mədəniyyət xadimlərini bu münasibətlə təbrik etdim, həmçinin Misir-Azərbaycan Dostluq Cəmiyyətinin üzvü kimi, həmkarlarımla birlikdə Azərbaycan Prezidentinə və xalqına məktub ünvanladıq.

**- Bildiyiniz kimi, Azərbaycan mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi edir və onların iştirakçıları Qarabağa, mədəniyyət paytaxtı Şuşaya səfərləri zamanı ermənilərin tarix-mədəniyyət abidələrini dağıtmasının şahidi olur, eyni zamanda, qonaqlara bərpa-quruculuq işləri nümayiş etdirilir. Sizcə, Şuşa şəhəri İslam dünyasının ən mühüm mədəniyyət mərkəzlərindən birinə çevrilə bilərmi?**

- Şübhəsiz ki, bunun üçün hər cür imkanlar mövcuddur. Şuşanın hər daşında mədəniyyət yadigarı var. Azərbaycan hökuməti də bu qədim mədəniyyət paytaxtının təbliği istiqamətində böyük işlər görür, müsəlman ölkələri, o cümlədən Misirin mədəniyyət, ictimai xadimlərinin, beyin mərkəzlərinin və jurnalistlərin Qarabağa səfərləri təşkil olunur. Qeyd etməliyəm ki, artıq bu fəaliyyət öz bəhrəsini verir. Belə ki, ərəb mətbuatında demək olar ki, günaşırı Qarabağ, Şuşa ilə bağlı xəbərlər və məqalələr dərc olunur. Fikir verin, Şuşa erməni işğalı altında olduğu zaman Misirdə çox az adam bu şəhərin mövcud olmasından məlumatlı idi. Burada Azərbaycanla bağlı keçirilən tədbirlərdə, əsasən, Xocalı soyqırımı gündəmdə olurdu. İndi isə Şuşa haqqında məlumatlar bütün ərəb ölkələrində yayılır. Bu, Azərbaycanın informasiya cəbhəsində mühüm qələbəsi sayıla bilər. Jurnalistlərimiz və ictimai-siyasi xadimlərimiz də bu gözəl şəhəri görməyə, orada keçirilən tədbirlərdə iştirak etməyə can atırlar, iş adamları bərpa-quruculuq işlərində iştirak etmək istəyirlər.

Bir məqamı qeyd etmək yerinə düşərdi. Düşünürəm ki, Şuşada İslam ölkələrinin iştirakı ilə böyük mədəniyyət tədbirlərinin, sərgilərin, konfransların təşkili faydalı olardı. Bundan başqa, gələcəkdə Qarabağda müsəlman dövlətlərinin gənclərinin də təhsil alacağı, birgə elmi tədqiqatların aparılacağı universitetin də açılması məqsədəuyğundur.

**- Səfalı, füsunkar Qarabağ torpağı həm də böyük turizm mərkəzinə çevriləcək. Ərəb ölkələrindən turistlərin Azərbaycana böyük maraq göstərdiyi bir vaxtda işğaldan azad olunmuş torpaqlarda turizm potensialını necə qiymətləndirirsiniz?**

- Qarabağ bölgəsi heyrətamiz dağ yüksəkliklərinə malikdir və bu, ona yaraşıq, ecazkarlıq bəxş edir. Təmiz havanı, füsunkar təbiəti, yaşıllığa bürünmüş dağları, büllur suyu olan bulaqları və çayları sevən ərəb turistlər üçün bu torpaqlar cazibəli olacaq. Yay aylarında sərin havalardan həzz alan misirlilər üçün də Şuşada dincəlmək çox əlverişlidir.

Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev bu ərazilərin inkişafı, yenidən qurulması, abadlaşması prosesinə xüsusi diqqət göstərir. Burada ən müasir standartlara cavab verən otellər, hava limanları turistlərin rahatlığına xidmət edəcək. Prezident İlham Əliyev, həmçinin mədəniyyət paytaxtı Şuşanın qədim şöhrətini bərpa etdi və buraya gələcək qonaqlar müxtəlif mədəni tədbirlərdə iştirak etmək imkanına malik olacaqlar. Bir sözlə, Qarabağın, onun incisi Şuşa şəhərinin tarixində yeni mərhələ başlayır. Ölkənizin Misirdəki dostları xoşbəxt, sabaha inamla addımlayan, Qarabağlı Azərbaycan görməkdən olduqca məmnunuq və həmişə sizinlə birlikdəyik.

# Narkomaniyanın yaratdığı psixoloji problemlər



***Hər il dünyada yüz minlərlə insan narkotik istifadəsinin təsirindən ölür. Qeyri-qanuni maddələrin istehsalı, daşınması və istifadəsi də ətraf mühitə zərərli təsir göstərir, lakin bu fakta hələ də lazımi diqqət yetirilməyib. Ümumiyyətlə qəbul edilir ki, planeti ən çox çirkləndirən sənaye və kənd təsərrüfatıdır. Bununla belə, kokain, tiryək və ekstazın ətraf mühitə dağıdıcı təsiri də var. Onlar nəzarətsiz meşələrin qırılmasına, torpaqda infrastrukturu təhdid edən çuxurlara səbəb olur və suyu ölümcül maddələrlə çirkləndirir.***

Artıq 3-cü ildir ki, dünyada hökm sürən koronavirus pandemiyası daha bir az qorxunc epidemiyanı - narkomaniyanı kölgədə qoyub. Son illərdə dünyada narkomanların sayı artmaqdadır. BMT-nin hesablamalarına görə, 2020-ci ildə 275 milyon insan qanunsuz maddələrdən istifadə edib, 2019-cu ildə isə 500 minə yaxın insan narkomaniyanın nəticələrindən dünyasını dəyişib. Üstəlik, COVID-19 pandemiyası və bununla bağlı karantin məhdudiyyətləri istehlakın artmasına səbəb olub. İnsanların psixoloji sağlamlığına mənfi təsir göstərir, bu da psixi pozğunluqların kəskinləşməsinə, həmçinin alkoqol və narkotik vasitələrdən istifadənin artmasına səbəb olur.

Beynəlxalq Narkomaniyaya Qarşı Mübarizə Gününə həsr olunmuş aylıq çərçivələrdə məktəb, kollec və universitetlərə gənclər arasında neqativ təzahürlərin qarşısının alınması istiqamətində bir sıra tədbirlər həyata keçirilir.

Demək olar ki, hər kəs narkomaniyanın qurbanı ola bilər, lakin bu, daha çox gənclərə aiddir. Narkomaniya aludəçilərin özləri üçün faciəyə, valideynlərinin kədərinə, müəllim və pedaqoqlar üçün bir çox ciddi problemlərə çevrilir. Bu problemlər bütün ciddiliyinə və hətta faciəsinə baxmayaraq, çox incədir və ehtiyatlı, balanslı yanaşma tələb edir.

Narkotik asılılığı şəxsiyyətin tam məğlubiyyətidir, üstəlik, əksər hallarda fiziki sağlamlıq baxımından ağırlaşmalarla müşayiət olunur. Narkotik qəbul edən şəxs tədricən özünə hörmətini itirir; onun ən yaxşı əxlaqi keyfiyyətlərini məhv edir, zehni olaraq normal deyil; dostlarını, sonra ailəni itirir; bir peşə əldə edə bilmir və ya əvvəllər sahib olduğu peşəni unudur. Bir sözlə cinayət mühitinə qarışır.







Narkomaniyanın qarşısının alınması üçün dünyanın əksər ölkələrindən alınan məlumatlar göstərir ki, narkomaniya bütün sosial təbəqələrə və yaş qruplarına, xüsusən də gənclərə yayılıb. indi uşaqlar və yeniyetmələr narkotiklərlə yaxın keçmişə nisbətən daha erkən yaşda tanış olurlar.

Ölkəmizdə sosial-iqtisadi və mənəvi-psixoloji vəziyyət dəyişdikcə, xarici əlaqələr genişləndikcə, sərhədlər açıldıqca, internetdən istifadə, gənclərlə bağlı problemlər getdikcə geniş vüsət alır və narahatedici xarakter alır. Ola bilsin ki, əvvəllər narkomaniya ilə bağlı problemlər barədə etibarlı məlumata malik olmayan bəzi vətəndaşlar özlərinə sual verəcəklər: "Ümumiyyətlə, narkomaniyanın cəmiyyət üçün təhlükəsi nədir və bu problem bu gün bu qədər aktualdırmı?".

Məsələ burasındadır ki, narkotik vasitələrdən qeyri-tibbi istifadə bütün dünyada dövlətlər və ictimai qurumlar tərəfindən böyük bəla kimi qiymətləndirilir və onlar bunu hər bir yolla, o cümlədən qanunla və hüquq-mühafizə orqanlarının köməyi ilə məhdudlaşdırmağa çalışırlar. Ümumi narahatlıq üçün bir neçə səbəb var. Narkomaniya şəxsiyyətin deqradasiyasına və orqanizmin məhvinə son dərəcə fəal şəkildə kömək edir.

### Narkomaniyanın yaratdığı psixoloji problemlər hansılardır?

Psixoloq Orxan Oruc SİA-ya açıqlamasında narkomaniyanın insanlarda yaratdığı psixoloji problemlərdən danışıb. Narkotik maddələrin əsas xüsusiyyəti ondan ibarətdir ki, o mərkəzi sinir sisteminə çox sürətli təsir göstərir. Narkotik maddələr fizoloji təsir və dəyişiklikləri ilə yanaşı əhval ruhiyyəni, hissləri, emosiyaları, iradəni, aqressiya səviyyəsini və s. dəyişə bilir. Beləliklə, narkotik asılılığını da həm fiziki, həm psixi olaraq iki yerə bölə bilərik. Narkotik maddənin asılılısı olan şəxsin həmin maddəni əldə etməsi üçün heç vaxt yalan danışmayan adamın yalan danışmasına, oğurluq etməsinə və hətta bəzən daha ağır cinayətlər belə törətməsinə səbəb ola bilir. Bu davranışlar isə şəxsin sosial münasibətlərinə, ailədaxili münasibətlərinə kəskin şəkildə təsir göstərir. Yeni yaranan sosial münasibətləri isə daha çox cinayi davranışlara meyilli olan, eyni və ya digər narkotik vasitə asılısı olan şəxslərdən ibarət olur. Narkotik asılıqlar depressiya, panik atak və digərlərinə, həmçinin özünə qarşı aqressiv davranış, hətta intihar kimi ağır nəticələrə səbəb olan psixoloji çətinliklər yarada bilir. Narkomaniyanın yaratdığı psixoloji problemlərlə yanaşı narkomaniyaya səbəb olan da onlarla psixoloji problemlərlə qarşı qarşıya qalır. Tədqiqatlar da, müşahidələr də daha çox ailədaxili münasibətlərin zəif olduğu, sevgi, qayğı, diqqət kimi zəruri ehtiyacı ödənilməyən, öz hiss və duyğularını, düşüncələrini bölüşməyə heç kimi olmayan, həddindən artıq nəzarət və basqı hissi ilə formalaşan, şəxsi dəyərlərinin formalaşmasında çətinlik çəkən şəxslərin narkotik maddə istifadəçisi olma riskinin daha çox olduğunu göstərir.

Narkotik maddələrdən asılılığın yaşı getdikcə azalır, təsirləri isə yeni növ maddələrin təsiri ilə daha da çoxalır. Adətən, narkotik maddə istifadəçiləri hər hansı az təsirli hesab olunan maddə və ya alkoqol ilə başlayırlar. Sonradan isə həzz duyğusuna tələbatın çoxalması, fizioloji və psixoloji vərdişlərin yaranması isə bu bir asılılığa çevrilir. Əlbəttə ki, narkotik maddə asılılığı nə qədər erkən bir yaşda yaranırsa, onun təsirləri də, riskləri də daha çox olur.

### Narkomiyadan qurtulmaq üçün tibbi müdaxilələrdən əlavə olaraq hansı tədbirlər görməlidir?

Əlbəttə, narkomaniya ilə mübarizə çoxşaxəli bir prosesdir. Dövlət qurumları, cəmiyyət, təhsil müəssisələri, ayrı-ayrı QHT-lər, media və s. birgə fəaliyyətlə daha faydalı nəticələri olan preventiv iş apara bilərlər. Bununla bağlı kifayət qədər işlər də həyata keçirilir. Lakin, narkomaniya ilə mübarizənin ən çətin tərəfi bu prosesin gizli getməsi və fəsadlarının üzə çıxması bir qədər ləngiməsi gecikmə ilə nəticələnə bilir. Narkotik maddədən asılılığın başlanğıcı adətən psixoloji çətinliklərlə başladığı üçün tibbi müdaxilə ilə yanaşı psixoloji iş də təşkil edilməlidir. Adətən, narkotik maddələr istifadə edən şəxslər narkotik qəbulundan sonra daxili dünyalarında rahatlıq tapdıqlarını, problemlərini unutduqlarını və özlərini yaxşı hiss etdiklərini söyləyirlər. Ancaq davamlı bu hissləri keçirtmək nəticədə asılılığın yaranmasına səbəb olur. Asılılığa tibbi müdaxilədən sonra eyni prosesin təkrarlanmaması üçün şəxs asılılıq yarandığı dövrə formalaşan əhatə dairəsindəki insanlardan uzaqlaşdırılmalı, həyatına yeni maraqlar qatmaq üçün addımlar atılmalı və mütəmadi peşəkar psixoloji yardım işi həyata keçirilməlidir.

Məsulliyət daha çox kimlərin üzərinə düşür desək, sözsüz ki, burada əsas məsuliyyət yeniyetmə və gənclərin daha çox vaxt keçirdikləri məktəb və valideynlərin üzərinə düşür. Təhsil mühitinin düzgün təşkil olunaması, məktəblilərin təhsil prosesinə həvəsləndirilməsi və onların maraq dünyasının davamlı nəzarət olunan və inkişaf etdirici səviyyədə olması həmin məktəblilərin risk qrupuna aid olması ehtimalını azaldır. Həmçinin, təhsil prosesi ilə yanaşı, məktəbdənkənar fəaliyyətlərin, idman yarışları, incəsənət tədbirlərinin, ekskursiyaların təşkil olunması və prosesdə məktəblilərə kiçik rolların verilməsi onların özünüifadə imkanlarını artırar və nəticədə özünü dəyərli, aid olduğu kollektivə lazımlı bir şəxs kimi hiss edən məktəbli bu kimi təlabatlarının ödənilməsi üçün kənar vasitələrə meyl etməz. Eyni zamanda, valideynlər tərəfindən uşaqlara özlərini dəyərli hiss etdirəcək münasibətin qurulması, onların öz hiss və duyğularını, düşüncələrini ifadə edə biləcək mühitin yaradılması görülə biləcək ən uğurlu addımlar olar.

***Havar Şəfiyeva***

# Bakı və Tehran: paralel inkişaf perspektivləri nədən xəbər verir?

***44 günlük Vətən müharibəsindən sonra Qarabağ torpaqlarını və onun ətrafındakı rayonları erməni işğalından azad edən Azərbaycan qalib ölkə olaraq daha bir mühüm addıma imza atdı - Bakı regional mühitə yeni nəfəs verdi, eləcə də öz qəti addımları ilə yeni reallıqların yaranmasına səbəb oldu. Bu reallıqlar fonunda nəzərəçarpacaq daha bir amil qonşu İran İslam Respublikası ilə münasibətlər kontekstində yeni baxışların yaranması faktorudur. Belə ki, ikinci Qarabağ müharibəsindən sonra Azərbaycanın Rusiyanın vasitəçiliyi ilə Ermənistanın məğlubiyyətini 10 noyabr üçtərəfli bəyanat çərçivəsində rəsmiləşdirməsindən sonra qarşıya qoyulan öhdəliklərdən biri də Ermənistan üzərindən Zəngəzur dəhlizinin açılması, həmin dəhliz vasitəsi ilə Azərbaycanın Qərb rayonlarının Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsidir.***

Lakin Ermənistanın digər bir sıra bəndlərlə yanaşı bu məsələ üzərində də siyasi oyunbazlıqlara əl atması, eləcə də prosesi uzatması Azərbaycanın növbəti qətiyyətli addımlara getməsinə şərait yaratdı. Daha dəqiq desək, Azərbaycan sərhədlərin delimitasiyası məsələsində Ermənistanın vaxtı uzatması, bu vasitə ilə Zəngəzur dəhlizinin açılmasına maneələr törətməsi cəhdlərinə qarşı daha bir qərar verdi - qonşu İran üzərindən dəhlizin açılması mümkünlüyü...

### Laçın dəhlizi deyilən yer birdəfəlik Ermənistanın üzünə bağlanacaq

Xatırladaq ki, cari ilin mart ayında Azərbaycan və İran arasında Şərqi Zəngəzur-Naxçıvan ticarət dəhlizi ilə bağlı mühüm memorandum imzaladı və həmin memorandumun imzalanması ilk olaraq Ermənistan üçün ciddi xəbərdarlıq siqnalı oldu. Fakt budur ki, Azərbaycan Ermənistan üzərindən Qərbi Zəngəzur dəhlizindən istifadə edə bilməyəcəyi halda həmin dəhliz məhz İran tərəfindən keçəcək, üstəlik, Laçın dəhlizi deyilən yer birdəfəlik Ermənistanın üzünə bağlanacaq.

Və bütün bunlar öz yerində, maraqlı məqamlardan biri də budur ki, Bakı ilə Tehran arasında imzalanan memorandum post-müharibə dövründə ilk vacib sənəd olmasıyla yanaşı, həm də regiondakı ticarət dəhlizlərinin gələcəyinə müsbət təsirlər göstərəcəyini ehtiva etdi. Beləliklə, bu sənədlə İİR ərazisində Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonunu və Naxçıvan Muxtar Respublikasını birləşdirən yeni nəqliyyat arteriyası yaradılması nəzərdə tutulur.




*Baş verən proseslər fonunda Azərbaycan-İran münasibətlərinin strateji həddə inkişaf etməsi çalarlarını müşahidə etməkdəyik və bu kimi məsələlərdə hər iki qonşu ölkənin təsir mexanizmləri də kifayət qədər genişdir*

### Tehranın Bakı ilə bu məsələdə paralel mövqedən çıxış etməsi əslində regional dəyişikliyi sübut edən növbəti danılmaz amillərdəndir

Dəhliz isə İran-Ermənistan sərhədindən 5 km cənubdan keçərək Şərqi Zəngəzur ilə Naxçıvanı birləşdirən dəmiryol sahəsindən, çoxzolaqlı avtomobil şosesindən, elektrik enerji ötürmə xətlərindən, rəqəmsal rabitə və başqa elementlərdən ibarət olacaq. Artıq bu danılmaz bir faktdır ki, regionda yeni ticarət dəhlizinin yaranması sadəcə iqtisadi maraqların deyil, habelə Azərbaycanın Ermənistanı iqtisadi müstəvidə təcrid etmək üçün atdığı növbəti siyasi-iqtisadi cəhətdən uğurlu addımdır.

Ən əsası isə Tehranın Bakı ilə bu məsələdə paralel mövqedən çıxış etməsi əslində regional dəyişikliyi sübut edən növbəti danılmaz amillərdəndir. Məsələ həm də ondan ibarətdir ki, Azərbaycan dövləti regional əməkdaşlığı daha da gücləndirməyin marağındadır və hələlik İrəvana müəyyən vaxt verməklə öz prinsipiallığını da qoruyur. Yəni Bakı Ermənistanın dəhlizlə bağlı yekun mövqeyini gözləməməyə qərar verib, amma bununla yanaşı, alternativ Zəngəzur dəhlizi faktını da siyasi-iqtisadi rıçaq olaraq saxlamaqdadır.

Nəticə etibarı ilə yeni dəhliz Ermənistanın deyil, qonşu İranın ərazisindən keçərək yeni kommunikasiya xəttinin yaradılmasına geniş imkanlar verəcək. Üstəlik, Azərbaycan burada heç nə itirmir və İranla yaradılacaq yeni dəhliz həm ticarət dövriyyəsinin artmasına, həm də bu dəhliz vasitəsilə qonşu Türkiyəyə uzanan quru yol əldə etmiş olacaq - itirən isə bir daha Ermənistandır!

### İran bu layihənin gerçəkləşdiriləcəyi halında həm regiondakı rolunu, həm də iqtisadi gəlirlərini artırmaq şansını əldə edə biləcək

Başqa tərəfdən, sözügedən anlaşma özü-özlüyündə İran üçün iqtisadi baxımdan olduqca böyük əhəmiyyət kəsb edir. Son bir neçə ildir ki, dərin iqtisadi böhranla və daxili narazılıqlarla mübarizə aparan İran üçün bu memorandum və dəhliz layihəsi yeni nəfəslik rolunu oynayacaq. Başqa tərəfdən, qarşılıqlı jestlər həm də belə nəticə hasil edir - 44-günlük Qarabağ müharibəsi vaxtı sülh danışıqları və ümumilikdə regional geosiyasi proseslərdən kənarda qalan İran bu layihənin gerçəkləşdiriləcəyi halında həm regiondakı rolunu, həm də iqtisadi gəlirlərini artırmaq şansını əldə edə biləcək.

Artıq bu cür də düşünə bilərik ki, İran üzərindən keçəcək yeni dəhliz layihəsi, rəsmi Bakının özünün regionda əsas resurs bazasına malik olduğunu sübut edir, Əlavə olaraq isə Naxçıvana açılacaq birbaşa quru yol dəhlizi üçün alternativ variantların mövcud olduğunu nümayiş etdirmək üçün də ən münbit fürsət əldə edilir.

Nəticədə belə bir sual yaranır: bəs Ermənistan nə əldə edəcək? Fakt budur ki, İrəvandakı hökumət üçtərəfli bəyanatdakı mövcud bəndə əməl etməməsi ilə özünü iqtisadi blokadaya salacaq və bütün layihələrdən təcrid olunacaq. Üstəlik, Ermənistan yaxın gələcəkdə digər beynəlxalq əhəmiyyətli tranzit layihələrə də qoşulmaq şansını itirəcək, misal üçün Şimal-Cənub dəhlizi...

### Qərb ölkələri artıq özlərinə alternativ mənbələr axtarışındadırlar və bu fonda onlar üçün yeganə çıxış yolu Azərbaycandan və İrandan keçir

Bu xüsusda biz İİR-in daha bir üstünlük qazana bilməsi şansı barədə qeyd edə bilərik. Məsələn, hazırda Rusiyanın Ukraynada apardığı müharibəsini və Qərb ölkələrinin İranla nüvə sazişini ən qısa zamanda yekunlaşdırmaq istəklərini nəzərə alsaq, bu zaman Bakı-Tehran əməkdaşlığının əhəmiyyətini anlamamaq qeyri- mümkündür. Belə ki, Ukrayna olayları baxımından Qərbin Rusiyaya qarşı tətbiq edilən ardıcıl iqtisadi sanksiyaları yaxın gələcəkdə digər region ölkələrinə də təsir edəcək və bunu istisna etmək də olmaz. Belə olduğu halda Azərbaycan da, İran da öz ehtiyat tədbirlərini eyni cinahdan görməlidirlər ki, həmin təsirlər bu ölkələrdən yan keçsin. İmzalanmış memorandumun görünən məqsədlərindən biri də məhz budur.

Lakin daha bir reallıq budur ki, əsasən Rusiyanın enerji mənbələrindən yararlanan Qərb ölkələri artıq özlərinə alternativ mənbələr axtarışındadırlar və bu fonda onlar üçün yeganə çıxış yolu Azərbaycandan və İrandan keçir. Beləliklə, göründüyü kimi, indiki qlobal iqtisadi və enerji böhranı dövründə Azərbaycan və İran ilk öncə Qərbə alternativ enerji mənbələri kimi daha maraqlıdırlar.

Nəticədə isə biz baş verən proseslər fonunda Azərbaycan-İran münasibətlərinin strateji həddə inkişaf etməsi çalarlarını müşahidə etməkdəyik və bu kimi məsələlərdə hər iki qonşu ölkənin təsir mexanizmləri də kifayət qədər genişdir.

**Rövşən RƏSULOV**







ANALİTİK-AKTUAL

# Dayanıqlı sosial-iqtisadi tərəqqinin göstəricisi: demoqrafik inkişaf

**TƏHLİL**

***Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan iqtisadi, siyasi, mədəni, sosial və digər sahələrdə çox mühüm nailiyyətlər əldə edib, ölkəmizin beynəlxalq mövqeyi daha da möhkəmlənib. Dövlət başçısının sosialyönümlü istiqamətində apardığı uğurlu siyasət nəticəsində əhalinin sosial rifah halı yaxşılaşıb, işsizliyin və yoxsulluğun aradan qaldırılması istiqamətində mühüm addımlar atılıb. Bu siyasətin mərkəzində isə Azərbaycan vətəndaşı dayanır.***



Azərbaycanda son illər baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsirini göstərib. Ölkəmizdə ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına uzunömürlülük, nikah və boşanma proseslərinin bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması, ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin tənzimlənməsi və digər amillər ölkəmizdə demoqrafiyanın inkişafına təsirsiz ötüşməyib. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı hər il sabit şəkildə artaraq 10 milyonu ötən ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla demoqrafik inkişafa təkan verir. Azərbaycanda MDB məkanında, ilk dəfə olaraq, elmi əsaslarla işlənilib, demoqrafiya sahəsində dövlət strategiyasını müəyyən edən "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilib. Bu gün bütün dünya ölkələri kimi Azərbaycan da 11 iyul Ümumdünya Əhali Gününü qeyd edilir. Bu əlamətdar tarixi 1989-cu ildə BMT-nin əhali problemlərinin həllinə yardım göstərən ən iri beynəlxalq təşkilatı olan Əhali Fondu təsis edib. Bu günün qeyd olunmasında məqsəd ailə planlaşdırılmasının əhəmiyyəti, gender bərabərliyi, yoxsulluq, qadın sağlamlığı və insan hüquqları kimi dünya əhalisi ilə bağlı müxtəlif məsələlər barədə məlumatlılığı artırmaq, insanların problemlərinə xüsusi diqqət yetirmək və ümumi inkişafa nail olmaqdır.

## AZƏRBAYCANDA MDB MƏKANINDA İLK DƏFƏ OLARAQ DEMOQRAFİYA SAHƏSİNDƏ DÖVLƏT STRATEGİYASINI MÜƏYYƏN EDƏN KONSEPSİYANI HAZIRLAYIB

Məlumdur ki, dünya əhalisinin demoqrafiyası tarixin müxtəlif dönəmlərində sabit olmamış, hər zaman dəyişikliyə məruz qalmışdır. Statistik göstəricilərə nəzər salsaq görərik ki, 1900-da dünya əhalisi 1.6 mlrd., 1960-da 3 mlrd., 2000-də 6 mlrd. olmuşdur. Demoqrafların hesablamalarına görə dünya əhalisi bu sürətlə artmağa davam etsə 2040-də dünyamızda 10 mlrd. insan yaşayacaq. 2100-cü ilə qədər isə 16 milyarda çatacaq və bu da əhali sıxlığının bəzi ölkələrdə yoxsulluq və müharibələrə səbəb olacağı ehtimalı yaratmış olur. Dünyada ən sürətli təbii artım 1950-1970 illərində müşahidə olunmuşdur. Ən çox təbii artım isə 1963-cü ildə qeydə alınmışdır. Bu zaman dünyanın təbii artımı 2,2% təşkil edib. Əhalisinin sayına görə, ilk üç yerdə Çin, Hindistan və ABŞ qərarlaşıb.Əlbəttə ki, müasir dövrün çağırışlarına cavab verən, sosial-iqtisadi inkişafı ilə diqqətdə olan Azərbaycan bütün beynəlxalq əhəmiyyət kəsb edən günlər kimi, Dünya Əhali Gününü də 2005-ci ildən etibarən qeyd edir. Son əsrlərdə Azərbaycandakı demoqrafik inkişafa nəzər salsaq görərik ki, 1897-ci ildə Azərbaycanda əhalinin sayı 1 milyon 807 nəfər, Birinci Dünya müharibəsindən əvvəl isə 2 milyon 339 nəfər olub. Dünya müharibəsi, azərbaycanlılara qarşı soyqırımı siyasəti, xarici müdaxilələr ölkə əhalisinin sayına mənfi təsir göstərib və 1920-ci ildə əhalinin sayı 1 milyon 952 nəfərə düşüb. 1980-ci ildə isə bu say 6 milyonu ötüb. 2000-ci ildə isə 8 milyondan artıq əhali qeydə alınıb. Xatırlatmaq yerinə düşər ki, Azərbaycanda MDB məkanında, ilk dəfə olaraq, elmi əsaslarla işlənilib, demoqrafiya sahəsində dövlət strategiyasını müəyyən edən "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası" təsdiq edilib. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsaslanmaqla, ölkəmizdə davamlı demoqrafik inkişafı təmin edilməsi üçün əhali sakinliyi və demoqrafik inkişaf sahəsində yeni Dövlət Proqramı layihəsi hazırlanaraq həyata keçirilib. Bütün bu və ya digər amillər demoqrafik inkişafa ciddi təsirini göstərib. Azərbaycanda hər il doğulanların sayı artır, misal üçün, 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. 2020-ci ilin 1 dekabr vəziyyətinə görə Azərbaycan əhalisinin sayı 10 123 004 nəfər təşkil edib. Əhalinin sayı 2019-cu illə müqayisədə 0,6% artıb. 2021-ci il ərzində Azərbaycanda yeni doğulan körpələrin sayı (yanvar-noyabr ayları ərzində) 101775 nəfər olub. Bu göstərici əhalinin hər 1000 nəfərinə 11,1 təşkil edib. Bu rəqəmlər bir daha göstərir ki, əhalinin sayında artımlar müşahidə edilməkdədir. Əhalinin 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

Əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri və idman kompleksləri istifadəyə verilir. Bununla yanaşı, dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" da mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla, səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir. Prezident İlham Əliyevin müdrik və uzaqgörən rəhbərliyi ilə Azərbaycanda iqtisadi inkişaf, sabitlik və əhalinin sosial rifahının yaxşılaşması istiqamətində görülən böyük işlərin nəticəsidir. Aparılan sosial-iqtisadi siyasətin əsas uğurlarından biri kimi, dayanıqlı inkişaf şəraitində Azərbaycanda müsbət demoqrafik şərait bərqərar olub. Azərbaycan, bir çox sahələrdə olduğu kimi, bu baxımdan da, nümunəvi ölkədir. Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində, bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də, davamlı olaraq, yaxşılaşması özünü göstərir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Avropa İttifaqının rəhbərliyi Zəngəzur dəhlizinin açılmasını istəyir"

***"Avropa İttifaqı və Azərbaycan arasındakı münasibətlər, xüsusilə də son dövrlərdə ayrıca inkişaf yolu keçməkdədir. Bu, böyük regional və beynəlxalq əhəmiyyət daşıyır. Bu gün keçmiş sovet məkanına daxil olan ölkələrin xarici siyasət kursunda elə xətlər və cərəyanlar baş qaldırmaqdadır ki, bu, həmin ölkələri gərginliyin içərisinə daxil edib". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Zahid Oruc deyib.***



Onun sözlərinə görə, bu, özlüyündə həmin xalqların həyatında çox ağır izlər qoyur: "Xüsusilə də Gürcüstanın bir müddət öncə Avropa İttifaqı ilə münasibətləri fonunda Abxaziya və Osetiya üzərində tam nəzarətinin itirməsi, ardınca Ukraynanın 2014-cü ildən bu günə qədər məruz qaldığı qlobal savaşın mərkəzində olması səbəbindən daha sonra hərbi savaşın meydanına çevrilməsi özlüyündə dövlət rəhbərlərinin atdığı addımları öz xalqlarının taleyinə necə təsir etdiyini görməyə imkan verir. Avropa İttifaqı Şarl Mişelin timsalında biz ölkəmizə qarşı digər qurumlardan fərqli, sistemli, sabit, düzgün davranışları görürük. Xüsusilə də Qarabağ məsələsi ilə bağlı onların bir tərəfdən regional gerçəkləri qəbul etmələri, Azərbaycanın ərazi bütövlüyünün təmin etməsinə rəğmən bunun legitimliyini tanınmaları, digər bir tərəfdən yeni bir arxitekturanın quruculuğu, yeni bir eranın başlanılması, bu danışıqlarda həqiqi sülhə niyyətli olduqlarını göstərmələri söylədiyimiz qarşılıqlı etibarın mərkəzində dayanan məsələlərdir.

Əlbəttə ki, Qərb ilə əməkdaşlığı, iqtisadi, siyasi münasibətləri hər zaman istəmişik. Təəssüflər olsun ki, Avropa Şurasının, ATƏT-in və onların ayrı-ayrı resurslarının ölkəmizə qarşı bütün hallarda sistemli ittihamları, təzyiq cəhdləri, Azərbaycanda hakimiyyəti əvəz etmək cəhdlərini gördükdə cənab Prezidentin bilavasitə iradəsi ilə onlara kəskin şəkildə reaksiyaların verildiyini və dövlət müsqtəqilliyinin necə qorunduğunu görmüşük. Lakin dediyiniz kimi ilk növbədə Avropa İttifaqı və onun rəhbərliyi Zəngəzur dəhlizinin açılması istəyir, Dağlıq Qarabağ terminindən imtina edir, Azərbaycana münasibətdə bütövlükdə prinsipiallıq nümayiş etdirir və Paşinyan hakimiyyətinə də açıq şəkildə işarə edir ki, onun qərbpərəst kursunun içərisində ala biləcəyi yalnız məlum 2,6 milyard avroluq vəsaitlərdir. Bu səbəbdən hesab edirik ki, Azərbaycan Prezidenti bu əlaqələrin davamlılığını istəyir və bu bizim Qərblə münasibətlərimizin bir parçasıdır".

***Arzu Qurbanlı***

# Rus ekspert: "SSRİ-nin dağılması İsveç və Finlandiyanı NATO-ya itələdi"



***İsveç və Finlandiyanın NATO-ya daxil olması Rusiya üçün o zaman kritik olacaq ki, bundan sonra 1999 və 2004-cü illərdə Polşa və Baltikyanı dövlətlərdə olduğu kimi, alyansın standartlarına uyğun olaraq hərbiləşdirmə aparılsın. SİA xəbər verir ki, bu fikirləri "Caliber" analitik mərkəzinə rusiyalı politoloq, RuBaltic.Ru analitik portalının baş redaktoru Aleksandr Nosoviç deyib.***

A.Nosoviçin fikrincə, bu ölkələrin alyansa sadəcə daxil olması sadə səbəbə görə kritik deyil ki, onlar uzun müddətdir NATO ilə əməkdaşlığı inkişaf etdirirlər və faktiki olaraq neytral deyillər.

Rusiyalı politoloq vurğulayır: "İsveç və Finlandiyanın neytrallıqdan çıxması Sovet İttifaqının dağılmasından sonra tədricən olub. SSRİ dağılandan sonra bu ölkələr üçün neytrallıq, ümumiyyətlə, lazımsız oldu. Və sonra bu Skandinaviya ölkələri Qərb birliyinə çox fəal şəkildə inteqrasiya edirlər. Finlandiya Avropa İttifaqına 90-cı illərin ortalarından qoşulub və Aİ olan yerdə NATO var. Avropaya inteqrasiya Aİ səviyyəsində iqtisadi və siyasi inteqrasiya ilə yanaşı, NATO səviyyəsində də hərbi inteqrasiyanı nəzərdə tutur. Əgər İsveç və Finlandiya AB-yə daxil olmaqla NATO-ya qoşulmayıbsa, bu, yalnız qaydanı təsdiqləyən istisnadır. Lakin onların alyansla qarşılıqlı əlaqəsi ildən-ilə dərinləşir və fəallaşırdı. Ümumiyyətlə, bu ölkələr artıq NATO-nun orbitində idilər. Və onlara Ukrayna faktorundan sonra Şimali Atlantika blokuna yalnız formal üzvlük lazım idi. Məsələ burasındadır ki, Rusiyanın xüsusi hərbi əməliyyatına qədər həm Ukrayna, həm də Skandinaviya ölkələri NATO-ya eyni model üzrə inteqrasiya edirlər. Yəni onlar alyansın formal üzvü oldular, lakin blokun faktiki olaraq bu ölkələrdə mövcudluğu ildən-ilə genişlənirdi.

NATO bunu əsasən müsbət cəhətlər kimi qiymətləndirdi- Rusiyanın daha az sərt reaksiyası, məxfilik və bu kimi digər amillər. Amma fevralın 24-dən sonra məlum oldu ki, bu taktikanın kiçik bir mənfi tərəfi var. İşin mənfi tərəfi o idi ki, NATO Ukraynada da olduğu kimi öz Nizamnaməsinin 5-ci maddəsini tətbiq edə bilməz və hərbi əməliyyatlarda iştirak edə bilməzdi. Əgər Ukrayna məsələsində alyans belə bir fədakarlıq edə bilərsə, Skandinaviyada bu, çox böyük itkilərdir, çünki bu, ABŞ və müttəfiqləri üçün Ukraynadan daha vacibdir, çünki o ölkələr Arktikaya çıxışı təmin edir. Buna görə də Rusiyanın skandinaviyalılara münasibətdə onların alyansdakı formal üzvlüyünün olmamasından istifadə etməsi ehtimalını bağlamağa qərar verildi. Mən bunu finlərin və isveçlilərin NATO-ya fəal şəkildə sürüklənməsi ilə əlaqələndirirəm".

A.Nosoviç onu da əlavə edib ki, İsveç və Finlandiya uzun illərdir fəal şəkildə NATO-ya üzv olmağa can atıblar və 24 fevral hadisələri bu prosesi leqallaşdırmaq və rəsmiləşdirmək üçün sadəcə bəhanə olub. "Buna görə də biz qəti şəkildə deyə bilərik ki, Rusiya İsveç və Finlandiyanı NATO-ya üzv olmağa məcbur etməyib. Sovet İttifaqının dağılması onları buna sövq etdi", - həmsöhbətimiz deyir. Sonda A.Nosoviç vurğulayıb ki, təbii ki, Rusiyadan NATO hərbi bazasının onun sərhədləri yaxınlığında yerləşdirilməsi ehtimalına cavab gözləmək lazımdır.

"Rusiya rəsmiləri artıq xəbərdarlıq ediblər ki, İsveç və Finlandiyanın NATO-ya daxil olduqdan sonra hərbiləşdirilməsi Rusiyanın Baltik dənizi regionunda, qərb hərbi dairəsində əks-militarizasiyasına səbəb olacaq. İndi alyansın Finlandiyanın cənubundakı hərbi bazasından bəhs etdiyimiz üçün bu tədbir avtomatik olaraq Sankt-Peterburq regionunda Rusiya qoşun qrupunun gücləndirilməsini nəzərdə tutur", - deyə rusiyalı ekspert yekunlaşdırıb.

*Tərcümə - Elçin Bayramlı*

# Qəbir məsələsi

## Felyeton



***Adət-ənənələrimizə görə Novruz, Ramazan, Qurban kimi bayramlarda camaat yığışıb əzizlərini ziyarət etmək üçün qəbiristanlıqlara gedər. Qurban bayramı ərəfəsində qəbiristanlıqdan qayıdan 3-4 nəfərin söhbətinə təsadüfən qulaq müsafiri oldum.***

Allahverdi kişi: - Ə, gördünüz Həsən kişinin qəbrini? Halal olsun oğluna. Atasının qəbrinin üstündə bir minarə yaradıb ki, gəl görəsən, adam baxanda papağı başından düşür. Oğul belə olar ey. Bizim də oğlumuz var. Allah bilir ki, bizi harada basdıracaq, heç baş daşı, sinə daşı qoymağa imkanı çatacaq, ya yox. Vaxtında dedim ki, ay bala, sən də Həsənin oğluna qoşul get urusetə, qazan, gətir. Mən dedim, mən eşitdim. Getmədi. Amma Həsənin oğlu budur ey, bəlkə 20 ildir ordadır. İndi də gəlib atasına bax belə yaraşıqlı qəbir ucaldıb. Mənimki də yanımdan bir addım o yana çəkilmədi.

Tanrıverdi kişi: - Ay Allahverdi, deyirsən ey, Həsən kişini mən də tanıyırdım da. İllərdir xəstədir, qalıb arvadı ilə o damın altında. Oğlu bircə dəfə maraqlanmadı ki, gedim görüm atam niyə xəstədir, dərdi nədir. Hə, nə olsun, mən öləndən sonra gəl, özünü camaata göstər.

Allahverdi kişi:- Ə, nə olsun ki, pul göndərirdi də. Ta neynəməli idi ki? Həsən 10 ildir, xəstədir, o da puldur ki, göndərir. Yəqin işi elədir ki, qoyub gələ bilmir də, nə eləsin? Vallah, Tanrıverdi, nə deyirsən de, mən Həsənin oğlunun xətrini çox istəyirəm, halal olsun ona. Yadında onun dədəsinə verdiyi ehsan. Süfrədə quş südü də var idi. Övlad belə olar ey...

Tanrıverdi kişi ta heç nə demədi. Başını bulayıb aşağı saldı.

Xudaverdi kişi:- Mən oğluma tapşırmışam ki, qəbrim üçün elə yer seçsin, şəhərin ən gözəl mənzərəsi ilə üz-üzə olsun. Boynuna babal qoymuşam, o da söz verib ki, ata, əlimdən gələni edəcəyəm. Mən oğlumdan razıyam, həm yanımdadır, xəstələnirəm başımın üstünü kəsir, xəstəxanaya aparır, həkimə göstərir, dava-dərmanımı alır. Qəbrimə də ki, söz verib, mənzərəli, gözəl bir yer seçəcək.

Tanrıverdi kişi:- Maşallah sənə Xudaverdi, uşağa qəribə iş tapşırmısan. Ə, heç utanırsan dediyin sözdən? Ə, yazıq uşaq sənə haradan tapacaq o yeri? Bilirsən elə yerlərin qiymətini? Uşağı niyə belə çətin işlərə təhrik edirsən? Bizim də sənin kimi bir qohum vardı, onun dədəsi tapşırmamışdı, oğlu yekəxana idi. Kişinin sağlığında bircə dəfə qapısını açıb gəlib demirdi, ay ata, necəsən. Öləndən sonra başladı özünü dost-tanışına göstərməyə. Bir ehsan verdi, gəl görəsən, qəbir yerini də sən demə əvvəlcədən satın alıbmış ki, desinlər, ə, gör nə oğuldur ey, atasını dəfn etdiyi yerə bax... Sonra maraqlandım, dedim görüm o yeri neçəyə alıb, vallah, elə qiymət eşitdim ki, dilim qurudu. Ona görə sənə deyirəm ki, yazıqdır o uşaq, qazancı nədir ki, onun, bu qədər yükün altına girə.

Xudaverdi kişi:- Ə, mənə nə var, qazancı nədir, canı çıxsın, saxlayıb böyütmüşəm, toyunu eləmişəm, o da məni ağır-əziz etməlidir, vəssalam.

Tanrıverdi kişi bu dəfə ta dillənmədi, yenə başını bulayıb aşağı saldı.

Bunların yanında bir molla da var idi. Mən bunu onun geyimindən müəyyən etdim. Sakitcə dayanıb bayaqdan bəri kişilərin söhbətinə qulaq asırdı. Görəndə ki, hamının sözü bitdi, o, danışmağa başladı:

-Bilirsiniz, mən dəfələrlə demişəm, amma məni dinləyən yoxdur, yenə də deyirəm:- A kişilər, qəbir təntənəli, bər-bəzəkli olmamalıdır. Belə buyurulub. Baş daşına şəkil vurmaq, sinə daşına şeir yazmaq dinimizdə yasaqdır. Qəbirlərin üstündə cah-cəlallı çardaqlar qurmaq, qəbirləri bahalı daşlarla düzəltmək qəbahətdir. Niyə görəsən insanlar dinləmirlər, əməl etmirlər? Vallah günah edilər. Hələ ölməmişdən əvvəl qəbir yeri haqqında düşünmək, qəbir yeri seçmək, bu heç düzgün deyil.

Mollanın sözü bitər-bitməz Allahverdi kişi:

-Sən kimə deyirsən, molla. Bəs yaxşı, qadağandırsa, oğlunun qəbrindəki o cah-cəlal nədir?

Molla:- Allahverdi, mənim oğlum cavan köçmüşdü axı dünyadan, ona görə elə elədim. Siz onunla özünüzü bir tutmayın ki... Yazıq uşaq nə gün gördü bu xaraba dünyada? Arzusu, diləyi gözündə, ürəyində getdi. Nə toy gördü, nə düyün. Deyirsən onu da eləmiyərdim onunçün? Sağ ol, vallah, ta mənim sənə sözüm yoxdur.

Molla bu sözləri deyib qəhərləndi və başını aşağı saldı, ta heç danışmadı. Mollanın bu nitqindən sonra heç kim danışmadı. Elə bir səhərdən bəri çırtaçırtla yanan ocağa su çiləndi. Söhbətin bu yerində yol da bitdi. Hər kəs sağollaşıb bir istiqamətə üz tutdu.

Mən yazıq nə elədim? Başladım düşünməyə və öz-özümə danışmağa. Dedim ki, bax, bu bizim ağsaqqallarımız. Bu bizim həm də Allahın adını adında daşıyan ağsaqqallarımız, Tanrıverdi kişi xaric. Bu da bizim mollamız. Ta heç nə düşünmədim. Çünki gördüm ki, düşündükcə əsəb məni onların gəldiyi qəbiristanlığa aparacaq...

*Mətanət MƏMMƏDOVA*

# "Ermənistanın sülhə getməkdən başqa yolu yoxdur"

"Üçtərəfli bəyanat imzalandıqdan sonra əsas vasitəçi moderator olaraq Rusiya iştirak edirdi". Bu sözləri SİA-ya açıqlamasında deputat Naqif Həmzəyev deyib.

Onun sözlərinə görə, Avropa İttifaqının bu prosesə töhfə vermək istəyini ortaya qoyması, Brüsseldə ardıcıl olaraq görüşlərin keçirilməsi onu deməyə imkan verir ki, Avropa İttifaqı Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması, sərhədlərin tanınması, kommunikasiyaların açılması, ümumilikdə Cənubi Qafqazda sülhün bərqərar olması üçün maraqlı tərəflərdən biridir: "Sonuncu Brüssel görüşündə də bir daha məlum oldu ki, görüş Azərbaycanın tərtib etdiyi gündəlik əsasında baş tutub.



Azərbaycanın qalib ölkəsinə baxmayaraq, sülhün təbliğ etməsi və Ermənistana sülh təklif etməsi həm Avropa İttifaqı tərəfindən, həmçinin digər beynəlxalq təşkilatlar tərəfindən müsbət qarşılandı. Sonuncu görüşdə Ermənistan tərəfinə bir daha izah olundu ki, onun sülhə getməkdən başqa yolu yoxdur. Əks təqdirdə Ermənistan daha çətin və çıxılmaz vəziyyətə düşə bilər. Həmçinin əldə edilmiş razılığa əsasən tərəflərin tanınması üçün işçi qrupunun yaradılması prosesiniləngitmək olmaz.

Məhz sonuncu Brüssel görüşündən sonra həqiqətən də bu prosesdə canlanmanın şahidi olduq. Ümid edirik ki, növbəti Brüssel görüşünə qədər Azərbaycan və Ermənistan arasında sərhədlərin tanınması, nəqliyyat-kommunikasiya xətlərinin açılması istiqamətində də digər addımlar atılacaq. Yaxın zamanda baş tutacaq növbəti görüş hansısa sənədlərin imzalanması mümkün ola bilər. Bununla yanaşı biz unutmamalıyıq ki, Avropa İttifaqı yalnız Azərbaycan-Ermənistan münasibətlərinin yaxşılaşdırılması yox, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyində daha aktiv iştirak etməsində maraqlıdır. Həmçinin Azərbaycanın şimal-cənub və şərq-qərb nəqliyyat dəhlizinin kəsişməsində yerləşməsi Azərbaycanı hazırda Çin-Avropa İttifaqı münasibətlərində, logistika xidmətlərinin göstərilməsində çox mühüm rol oynadığını hər kəs bilir".

*Arzu Qurbanlı*

# Tutduğu yola, əqidəsinə sadiq qalan 31 yaşlı ”İki sahil”ə oxucu məhəbbəti böyükdür






*“İki sahil" qəzetinin baş redaktoru, Əməkdar jurnalist Vüqar Rəhimzadənin müsahibəsi*

VAHİD AZƏRBAYCAN UĞRUNDA
iki sahil
GÜNDƏLİK İCTİMAİ SİYASİ QƏZET
1991 - 2022
31 il

**- Vüqar müəllim, iyulun 10-da rəhbərlik etdiyiniz ”İki sahil” qəzetinin 31 yaşı tamam olur. Sizcə, ötən 31 il ölkənin çoxsaylı mətbu orqanları arasında özünəməxsus yeri olan qəzetinizin fəaliyyətində hansı məqamlarla yadda qalıb? Ümumilikdə ”İki sahil”in dünəninə baxış, qarşıdakı hədəflərini müəyyənləşdirməkdə mənbə rolunu oynayan qəzetin 31 yaşını hansı əhval-ruhiyyə ilə qeyd edirsiniz?**

- El arasında belə bir deyim var ki, arxada qalan hər gün bir hesabatdır. Çalışmaq lazımdır ki, bu hesabatı təqdim edərkən insanların ovqatına xoş təsir edən fəaliyyət ortaya qoya biləsən. Ümumilikdə ”İki sahil”in 31 yaşını hansı əhval-ruhiyyə ilə qeyd etməyimizə gəldikdə isə onu deyə bilərəm ki, hər bir fəaliyyət sahəsində uğurlu başlanğıc, qarşıya qoyulan hədəfə çatmaq istiqamətində atılan hər bir inamlı addım növbəti nailiyyətlərə yol açan başlıca foktordur. Bu faktoru eyni ilə rəhbəri olduğum ”İki sahil” qəzetinin, necə deyərlər, 31 illik ömür yoluna da şamil edə bilərik.

Mübaliğəsiz demək olar ki, bu gün ”İki sahil” ömrünün gənclik illərinin ən mükəmməl dövrünü yaşayır. Ötən 31 il ”İki sahil”i daha da təkmilləşdirdi, dövrün, zamanın yeni tələblərini özündə, fəaliyyətində əks etdirməyə çağırışlar etdi və biz də zamanın çağırışlarına layiqincə cavab verən, böyük oxucu sevgisi qazanan, yarandığı gündən tutduğu yola, əqidəsinə sadiqlik nümayiş etdirən bir mətbu orqan olaraq çağdaş Azərbaycanın media məkanında yerimizi, mövqeyimizi möhkəmləndirdik. Təbii ki, bu qənaətə tələbkar oxucularımızın bizim üçün son dərəcə əhəmiyyətli olan rəylərinə əsaslanaraq gəlirik.

Hərdən bugünümüzü dünənimizlə müqayisə edərkən düşünürəm ki, iki il bundan öncə hər bir Azərbaycan vətəndaşı kimi, cəmiyyətin güzgüsü olan hər bir mətbu orqanda, o cümlədən ”İki sahil” qəzetinin redaksiyasında çalışan jurnalistlərin də əsas arzusu, istəyi torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyümüzün təmin olunması idi. Hər bir əlamətdar bayram günlərində, xüsusilə qəzetimizin nəşrə başlamasının ildönümlərində keçilən yolu təhlil edib sonda bu arzunu ifadə edirdik ki, torpaqlarımızın mənfur düşməndən azad edilməsi xəbərinin müjdəçilərindən biri olaq.

Sonsuz sevinc və qürur hissi keçiririk ki, artıq bu arzumuz Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, rəşadətli ordumuzun gücü, qüdrəti, xalqımızın dəmir yumruq kimi birliyi, torpaq, Vətən sevgisi sayəsində reallığa çevrilib. Bu gün hər birimizin həyatında, fəaliyyətində tarixi Zəfərimizin rolunu görməmək mümkün deyil. Bu gün tamamilə fərqli bir ab-havanı, ovqatı yaşayırıq. Hər gün oxucularının görüşünə yeniliklərlə, təkmilləşmə ilə gələrək onların informasiya tələbatını ödəməyə çalışan ”İki sahil”in səhifələrində yer alan materiallara, analitik yazılara diqqət yetirsək Azərbaycanımızın hazırda yeni quruculuq mərhələsində olduğunu görərik. Zəfərimizin reallıqları hər sahənin inkişafında özünü göstərir. Təbii ki, ictimai fikrin formalaşmasında, həqiqətlərimizin təbliğində əsas missiyanı yerinə yetirən mətbuatın bu yeniliklərdən, təkmilləşmədən kənarda qalması mümkünsüzdür. Qalib Azərbaycanın mətbuatının da qarşısında yeni hədəflər dayanır. ”Media haqqında” Azərbaycan Respublikası Qanununun qəbulu, burada əksini tapan və yeniliyə çağırış olan hər bir müddəanın uğurlu icrası üçün digər mətbu orqanlar kimi, ”İki sahil” də fəaliyyətini Zəfərimizin reallıqlarına uyğun şəkildə gündən-günə təkmilləşdirməkdədir. Artıq qəzetimizi yeni formatda təqdim edirik. Yeni format yeni tələb olmaqla yanaşı, həm də qəzetin hər sayını ərsəyə gətirən, oxuculara zəngin məlumatlar təqdim etmək başlıca amalı olan hər bir əməkdaşımızın, ümumilikdə yaradıcı kollektivin qarşısında duran böyük məsuliyyətdir.

Bu gün ”İki sahil”in səhifələrində azad Qarabağda, azad Şərqi Zəngəzurda həyata keçirilən nəhəng infrasturuktur layihələri, görülən quruculuq işləri öz əksini tapır. Qəzetimizin manşetinə çıxarılan xəbərlərə diqqət yetirdikdə Azərbaycanın uğurlarının zirvəsində dayanan tarixi Zəfərimizin yaratdığı reallıqlar əsasında görülən işlərin, dövlətimizin atdığı Zəfər, tərəqqi ruhlu addımların nəticələrindən sonsuz xoşbəxtlik hissi keçirməmək olmur. İki ilə yaxın dövrdə Qarabağın tacı, Azərbaycanın, bütün türk dünyasının mədəniyyət paytaxtı Şuşada ənənəsi bərpa edilən ”Xarıbülbül” musiqi festivalının, bu ilin 15 iyununda Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümünə həsr olunmuş, Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının birgə təşkilatçılığı əsasında keçirilən ”Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir” mövzusunda beynəlxalq konfrasın iştirakçısı olmuşam. Həmçinin ötən ay siyasi partiya nümayəndələrinin, tanınmış politoloq və siyasi şərhçilərin, media nümayəndələrinin iştirakı ilə Zəngilan rayonunda olduq. Azad Qarabağımızda, azad Şuşamızda, azad Zəngəzurumuzda olmaq, bu səfərlərdən alınan zəngin təəssüratları oxucularla bölüşmək böyük xoşbəxtlik olmaqla yanaşı, həm də bu ovqatın, qürurun daha təkmil çağırışlara yol açmasına böyük stimuldur. Ötən il 30 illik həsrətdən sonra ilk ”Xarıbülbül” musiqi festivalında iştirak etmək üçün Şuşaya səfəri çərçivəsində ölkə Prezidenti İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın biz jurnalistlərlə səmimi söhbətləri, xatirə şəkli çəkdirmələri heç vaxt yaddan çıxmayacaq xoşbəxt anlardır. Həmin görüşlərin, müzakirələrin iştirakçısı olmaqdan böyük qürur hissi keçirdim. Təbii ki, bu müzakirələr əsasında açıqlanan hədəflərə qəzetimizin öz töhfələrini verməsi üçün son bir ildə səylərimizi daha da artırmışıq.

Bir sözlə, hədəflərə doğru addım-addım irəliləyirik. Ötən 30 yaşımızdan bu günə nəzər salsaq, tarixi Zəfərimizin mühüm reallıqlarından olan işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işlərinin fəal təbliğatçıları sırasında olan ”İki sahil”çilərin qəzetin növbəti ad günlərində Böyük Qayıdış sevincini paylaşmalarından qürurla bəhs edəcəklərini əminliklə qeyd edə bilərik. Artıq torpaqlarımızın işğaldan azad edilməsi müjdəçisi olmaqdan Böyük Qayıdış sevincini çatdırmağa doğru irəliləyirik.

Qəzetimizin 31 yaşına gəldikdə isə əvvəldə də qeyd etdiyim kimi, onu deyə bilərəm ki, bu yolu oxucularımızla birgə qət etmişik. Buna görə də bu illərdə nəyi necə etdiyimizi qiymətləndirməyi oxucularımızın ixtiyarına buraxırıq. Dövlətçiliyimizin möhkəmlənməsinə töhfələr vermək, müasir müstəqil Azərbaycanımızın daha da qüdrətlənməsinə, tarixi həqiqətlərimizin təbliğinə, diplomatik mübarizədə payımızın olmasına nail olmaq ”İki sahil”in daim əsas hədəfi olub. Bu hədəf 31 ildə dəyişməyib. İlk gündən hansı məqsədlə, məramla yola çıxmışıqsa, bundan sonra da eyni yola davam etdirəcəyik. Əqidəyə sadiqlik, dəyişməz yol hər zaman uğurlara yol açır, böyük inam və etimad mühiti formalaşdırır. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin ”İki sahil” qəzetinin fəaliyyətinə verdiyi dəyəri hədəflərimizin əsası, məsuliyyətimizi daha da artırmağa çağırış kimi qəbul edirik: ”O vaxt ”İki sahil” qəzeti yaranmışdı. Mən hesab edirəm ki, bu qəzet də çox iş görmüşdür. Bu qəzet indi də Yeni Azərbaycan Partiyasına xidmət edir. Amma o vaxt bu partiya yox idi, lakin ”İki sahil” qəzeti çox cəsarətli məqalələr verirdi. Mən təkcə Naxçıvanı götürmürəm, ədalətsiz hadisələrə qarşı Azərbaycanın ayrı-ayrı vətəndaşlarının, ziyalılarının fikrini dərc etməkdə bu qəzet yaxşı fəaliyyət göstərmişdir, indi də göstərir. Mən bunu da yüksək qiymətləndirirəm.” Ümummilli lider Heydər Əliyevin bu xoş sözlərinin ünvanı olan ”İki sahil” qəzeti verilən bu dəyərin böyüklüyünü, məsuliyyətini hiss edərək bu gün də fəaliyyətini uğurla davam etdirir.

**- Qeyd etdiyiniz kimi, uğurlu başlanğıc, qarşıya qoyulan hədəf növbəti uğurların əsasıdır. ”İki sahil” qəzetinin fəaliyyətə başladığı dövrü necə xarakterizə edərdiniz? Bu gün 31 yaşlı ”İki sahil” bir yaşlı ”İki sahil”dən hansı stimulu alır?**

- ”İki sahil” dövlət müstəqilliyini yenidən bərpa edən Azərbaycanın uğurlarının bələdçisidir. Bu mühüm məqam qəzetin yarandığı dövrün aydın mənzərəsini təqdim edir. Eyni zamanda, onu da nəzərə alaq ki, ”İki sahil” qəzeti yarananda Azərbaycan hələ dövlət müstəqilliyini bərpa etməmişdi. O illərdə ölkədə xaos, anarxiya, özbaşınalıqlar hökm sürürdü. Müstəqil mətbuatın yaranmasından, fəaliyyətindən danışmaq böyük qətiyyət, cəsarət tələb edirdi. Senzuranın tüğyan etdiyi bir zamanda ”İki sahil” qəzetinin böyük çətinliklə yaratdıq. Demək, məqsəd varsa, ona nail olmaq üçün çətinliklərə rəğmən addımlar atıla bilər və biz bu addımı atdıq. Bu gün o illərin yaşantıları fonunda məqsədimizə nail olub 31 illik yol qət etməyimizdən bəhs ediriksə, bu, bizim xoşbəxtliyimizdir. ”İki sahil” ”Vahid Azərbaycan uğrunda” amalı ilə yola çıxdı. Qəzetin ilk saylarında xalqımızın Araz dərdindən, o taylı, bu taylı soydaşlarımızın problemlərindən ətraflı materiallar dərc olundu və bu yazılar oxucular tərəfindən böyük rəğbətlə qarşılandı. Adı ilə tutduğu yolu, məqsəd və məramını açıqlayan ”İki sahil” ölkədə baş verən ictimai-siyasi proseslərə də biganə qalmadı. Bütün çətinliklərə baxmayaraq mətbuatın əsas missiyasını uğurla yerinə yetirdi və fəaliyyətinin ilk günündən başlayaraq geniş oxucu kütləsinin rəğbətini qazandı.

**Ardı Səh.11**

# Tutduğu yola, əqidəsinə sadiq qalan 31 yaşlı "İki sahil"ə oxucu məhəbbəti böyükdür

Əvvəli-Səh-10

Oxucu rəyi, sevgisi hər bir mətbu orqanın fəaliyyətində, yeni axtarışlar sorağına çıxmasında, zəngin informasiyaları təqdim etməsində, bir sözlə, illərin necə gəlib keçməsini belə hiss etməməsində mühüm rol oynayır. Necə ki, "İki sahil" olaraq 31 ilin sürətlə keçdiyini düşünür, uşaqlıq, gənclik dövrü kimi xarakterizə olunan dövrümüzdə əldə etdiyimiz təcrübəni tətbiq etməklə, təkmilləşmələr aparmaqla bu sevgini bu gün daha da artırırıq. Gündəlik maraqlı yazılarla oxucuların görüşünə gəlmək, materialların rəngarəngliyini qorumaq təbii ki, böyük məsuliyyət, axtarış tələb etdiyi kimi, eyni zamanda, şərəflidir.

Dövlətimizin uğurlu siyasəti və bunun nəticəsində əldə olunan nailiyyətlər ölkə ictimaiyyətinə faktlar əsasında çatdırılır, cəmiyyətin informasiya tələbatının ödənilməsinə "İki sahil"in töhfələri günbəgün artır. Bir sözlə, "İki sahil" Azərbaycanın müstəqillik tarixinin hər bir mərhələsinin, dövrünün reallıqlarının güzgüsü ilə yanaşı, carçısı, təbliğatçısıdır. Qəzetimizin www.ikisahil.az elektron versiyası daim yenilənir. "İki sahil TV" İnternet televiziyamız fəaliyyət göstərir. Dəfələrlə qeyd etdiyim kimi, zamanın, dövrün tələbləri dəyişsə də, bu çağırışlara uyğun yeniləşib inkişaf etsək də əqidəmiz, tutduğumuz yola sadiqliyimiz dəyişməzdir. Bir yaşlı "İki sahil" 31 yaşını qeyd edən "İki sahil"ə bu tövsiyəni etmiş və həmin tövsiyələrin nəticələri bugünkü uğurlarımızda əsas rol oynamışdır.




**- Vüqar müəllim, məlumdur ki, "İki sahil"in fəaliyyətinin əsas istiqaməti Heydər Əliyev ideyalarının təbliğidir. Ümummilli Liderin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının təsis olunması məqsədilə "91-lər"in Ulu Öndərə müraciətindən bu günədək qəzet partiyanın keçdiyi yolun işıqlandırılmasında, cəmiyyətin avanqard qüvvəsi kimi gördüyü işlərin təbliğində fəal iştirak edir. Bəs "İki sahil" son bir ildə Yeni Azərbaycan Partiyasının Zəfər ruhlu fəaliyyətində hansı yenilikləri oxucularına çatdırmağa nail olub?**

- Bu məqamı xüsusi qeyd etmək istərdim ki, ötən il Yeni Azərbaycan Partiyasının Zəfərimizin reallıqları fonunda keçirilən VII qurultayında dövlət başçısı, YAP-ın Sədri cənab İlham Əliyevin proqram xarakterli çıxışı partiyanın yaranmasından bugünədək keçilən yolun, qarşıdakı hədəflərin təqdimatında əhəmiyyətli rol oynadı. Əvvəldə də qeyd etdiyim kimi, möhtəşəm Qələbəmiz bütün sahələrdə, o cümlədən siyasi sistemdə yeniliklərə yol açdı. Həmin qurultayda partiyanın yeni Nizamnaməsi qəbul olundu, yeni tərkib formalaşdı, yeni qərarlar qəbul olundu. Həmçinin bu reallıqlara söykənərək partiyanın gələcək inkişafına bələdçilik edən yeni Proqramı hazırlandı və təsdiq edildi. Bütün bu proseslərin ətraflı şəkildə ictimaiyyətə çatdırılmasında "İki sahil" yüksək fəallıqla çalışır və bundan şərəf duyur. Bu il partiyamızın həyatında əlamətdar hadisə qeyd ediləcək. Yeni Azərbaycan Partiyası yaranmasından keçən 30 ilik yolun bütün məqamlarını ictimaiyyətlə bölüşəcək. Təbii ki, bu mühüm hadisəni də "İki sahil" böyük ruh yüksəkliyi ilə işıqlandıracaq. Vaxtilə partiyanın yaradılması ilə bağlı xalqın böyük əksəriyyətinin istəyini özündə əks etdirən 91 nəfər ziyalının Ulu Öndərə "Azərbaycan Sizin sözünüzü gözləyir" müraciətini, həmçinin bu müraciətə Ümummilli Liderin "Yeni müstəqil Azərbaycan uğrunda" cavabını ictimaiyyətə çatdıran "İki sahil" bu gün yeni hədəflərə doğru "İlhamla irəli!" çağırışını səsləndirir.

Bir sözlə, 31 illik yol qət edən "İki sahil" ölkəmizin aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının bütün təşəbbüslərini, qərarlarını, partiyanın həyatında əhəmiyyətli rol oynayan qurultaylarını, şəhər və rayon təşkilatlarının fəaliyyətini, keçirdikləri silsilə tədbirləri, ən əsası ölkəmizin həyatında əhəmiyyətli rol oynayan seçkilərdə Yeni Azərbaycan Partiyasının hazırlıq mərhələsindən başlamış səsvermə prosesinə qədər fəaliyyətinin bütün məqamlarını geniş şəkildə işıqlandırır, YAP-ın qələbə, ümumxalq, gənclər partiyası kimi nüfuz qazanmasını konkret faktlar əsasında ölkə ictimaiyyətinə çatdırır. "İki sahil" Yeni Azərbaycan Partiyasının dünənin, bu günün və gələcəyin partiyası olduğunu, tarixin sınaqlarından şərəflə çıxaraq cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsini, YAP-a xidmət etməyin xalqa, dövlətə xidmət etmək olduğunu əsaslı şəkildə analitik yazılar, partiyanın yarandığı dövrün şahidlərinin vasitəsilə indiki və gələcək nəsillərə çatdırılmasına səy göstərir. "İki sahil"çilər Azərbaycanın dünəninin, bugününün və sabahının əsas kimi dəyərləndirilən Heydər Əliyev ideyalarının təbliğatçıları olmaqdan şərəf duyurlar.

**- "İki sahil" qəzetin təsisçisi olan SOCAR-ın gördüyü işləri ictimaiyyətə necə təqdim edir?**

- Müasir müstəqil, qalib Azərbaycanın uğurlarında ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının rolu böyükdür. Ölkəmizin neft sektorunda qazandığı uğurlar qeyri-neft sektorunun inkişafına xidmət edən addımların davamlılığında əhəmiyyətli rol oynayır. Bu gün Azərbaycan dünyada etibarlı tərəfdaş, təşəbbüsləri reallığa çevirən ölkə kimi tanınır və nüfuz qazanır. Təbii ki, neft strategiyasının uğurlu icrasında SOCAR-ın böyük rolu vardır. "İki sahil" həm qəzetimizin təsisçisi olaraq, həm də dövlət siyasətimizin əsasını təşkil edən sosial-iqtisadi tərəqqiyə verdiyi töhfələrə görə SOCAR-ın fəaliyyətini işıqlandırmaqdan, gördüyü işləri ictimaiyyətə dolğun şəkildə çatdırmaqdan məmnundur. Azərbaycanın dünyaya səs salan tarixi Zəfərində iqtisadi müstəqilliyinin və bu fonda artan siyasi çəkisinin rolunu unutmamalıyıq. Bu gün Zəfərimizdən sonra işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işlərindən, infrastruktur layihələrinin uğurlu icrasından, Qarabağın tezliklə cənnət məkana çevriləcəyindən, Böyük Qayıdışın ilk addımının atılmasından bəhs ediriksə, bu, Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə yüksək dəyər verərək bugünümüz üçün möhkəm iqtisadi baza yaratmasının nəticəsidir. 1994-cü ilin 20 sentyabrında tarixə "Əsrin müqaviləsi" kimi daxil olan neft sazişinin, 2017-ci ildə onun davamı olaraq "Yeni əsrin müqaviləsi"nin imzalanması, SOCAR-ın neft strategiyasının uğurlu icrasına davamlı töhfələrini verməsi təqdirəlayiqdir. SOCAR dövlət başçısı İlham Əliyevin tapşırığına uyğun olaraq dünyanın modern şirkətləri ilə bir sırada dayanır, həyata keçirdiyi investisiya layihələri ilə Azərbaycanın nəinki investisiya cəlb edən, eyni zamanda, investisiya yatıran ölkə imicinə əlavələr edir. Bu gün SOCAR təkcə ölkə deyil, dünya iqtisadiyyatında da böyük təsir gücünə malik olan bir quruma çevrilib. Belə bir modern qurumun fəaliyyətinin təbliğatçısı olaraq, eyni zamanda, Azərbaycanın yenilikçi, innovasiyalar ölkəsi olduğunu, müasir tələblərin yerinə yetirilməsinin yeni texnologiyaların inkişafı ilə sıx bağlılığını təbliğ edirik.

**- Vüqar müəllim, müasir tələblərdən söz düşmüşkən, bilmək istərdik ki, "İki sahil"də gənclərin potensial imkanlarından istifadə hansı səviyyədədir?**

- Gənclər bizim gələcəyimizdir. Bütün dövrlərdə gənclərin potensial imkanlarından, müasir dünyagörüşlərindən, yeniliyə, təkmilləşməyə daha çox maraq göstərərək ortaya qoyduqları yeni ideyalardan bəhrələnməyə xüsusi diqqət göstərilir. "İki sahil" 1991-ci ildə kiçik bir kollektivlə yola çıxdı. 30 il sıralarını zənginləşdirdi. Hazırda "İki sahil" böyük ailədir. Ailədə böyüklərin təcrübəsi ilə gənclərin dinamizmi arasında vəhdət yaradılır. Bu isə öz növbəsində fəaliyyətimizdə uğurlara yol açır, internet televiziyasının inkişafında, qəzetin elektron versiyasının təkmilləşməsində, yeniləşməsində, bununla da hər yaşda oxucularımızın, izləyicilərimizin informasiya tələbatını ödəməyimizdə özünü aydın şəkildə büruzə verir. Gənclərimiz "İki sahil"də böyük təcrübə qazanır.

**- 31 yaşını qeyd edən "İki sahil"in növbəti ildən gözləntisi nədir? Qəzet 32 yaşına hansı hədəflərlə qədəm qoyur?**

-
Ölkəmizdə azad mətbuatın inkişafı isti
qamətində davamlı addımlar atılır. Mətbuatın inkişaf səviyyəsi dövlətin inkişafının göstəricisidir. "İki sahil" olaraq daim dövlətin bu diqqət və qayğısını öz üzərimizdə hiss etmişik. Bir qrup əməkdaşımızın fəxri adlarla və medallarla təltif olunması ümumilikdə "İki sahil"in fəaliyyətinə verilən yüksək dəyərdir. Dövlət başçısı İlham Əliyevin jurnalistlərin mənzil- məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı sərəncamlarına uyğun olaraq tikilib istifadəyə verilən iki binada mənzil alanlar sırasında "İki sahil"in əməkdaşları da vardır. Təbii ki, bu diqqət və qayğı, göstərilən etimad məsuliyyətimizi daha da artırır. Çoxsaylı mətbu orqanlar arasında özünəməxsus yer tutmaq, geniş oxucu kütləsini qazanmaq böyük qürurdur, şərəfdir, gələcəyə daha böyük inamla addımlamağa stimuldur. Əvvəldə də qeyd etdiyim kimi, qarşıdakı hədəflərə doğru addım-addım irəliləyirik. Ötən bir il ölkəmizin həyatında tarixi Zəfərimizin reallıqlarının tərkib hissəsi olaraq işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin geniş vüsət aldığı bir dövr kimi xarakterizə olundu və "İki sahil" bu işləri ardıcıl surətdə ictimaiyyətə çatdırdı. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş torpaqlarımıza tarixi səfərlərinin yaratdığı qürur hissini ictimaiyyətlə paylaşmaqdan fərəh duyduq. Əminik ki, növbəti ildə Böyük Qayıdışın reallaşması sevincini paylaşacağıq. Təbii ki, uğurlarımız möhtəşəmdir. Onlar fəaliyyətimizə böyük stimul verir. Digər tərəfdən yeni "Media haqqında" Qanunun özündə ehtiva etdiyi tələblərin həyata keçirilməsində "İki sahil" olaraq öz sözümüzü deyəcəyik. Dövlətə, xalqa xidmətdən şərəf duyan, qərəzsizliyi, obyektivliyi, vətənpərvərlik kimi prinsipləri fəaliyyətlərinin önündə saxlayan "İki sahil"çilər dövlət başçısı İlham Əliyevin "Əldə olunan uğurlarla kifayətlənməməli, daim irəli baxmalıyıq" tezisinə söykənir, gələcəyə, yeni hədəflərə doğru inamla addımlayırıq.

"İki sahil"in ad günündə kollektivimizlə yanaşı, bu illəri bizimlə birgə addımlayan oxucularımızı da təbrik edir, "Hər zaman bir olaq!" deyirəm.

# Şəhid ailələri və qazilərə qayğı dövlət siyasətinin əsas prioritetidir



**FUAD HEYDƏR,**
**YAP Səbail rayon təşkilatının təlimatçısı**

Hər bir dövlət və cəmiyyət üçün hərbi əməliyyatlarda iştirak edən şəxslərin müharibələrdən sonra mövcud durumu, şəhid və qazi ailələrinin sosial-psixoloji vəziyyəti önəmlidir. Bu kimi çağırışların öhdəsindən, məhz sözün əsl mənasında, bütün parametrlərinə görə sosial dövlət kriteriyalarına cavab verən və siyasətində əsas amil vətəndaş olan dövlətlər gəlir. Azərbaycan son 30 ildə olduğu kimi, Vətən müharibəsindən sonra da Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçısı olmuş şəxslərə diqqət və qayğı ölkəmizdə yüksək səviyyədədir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan Fərman və Sərəncamlar, Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da ölkə ictimaiyyəti tərəfindən yüksək minnətdarlıqla qarşılanır. Bu gün də bu istiqamətdə həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır. Belə ki, dövlət başçısının müvafiq fərman və sərəncamları əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə müstəsna töhfələr verir. Məhz bu qayğının nəticəsi olaraq Sosial Tədqiqatlar Mərkəzinin Prezident İlham Əliyevin bu ilin ilk dörd ayı (yanvar-aprel) üzrə fəaliyyəti ilə bağlı keçirdiyi sosioloji sorğu zamanı dövlətimizin başçısının şəhid ailələrinə və müharibə iştirakçılarına qayğısı və dəstək fəaliyyətindən respondentlərin 76,9 faizi çox razı, 17,2 faizi əsasən razı olduğunu bildirib. Ən önəmlisi isə odur ki, həm cənab Prezident İlham Əliyev, həm də Birinci vitse-prezident Mehriban xanım Əliyeva tez-tez şəhid ailələri, müharibə iştirakçıları, müharibə əlilləri ilə daim görüşür, onların sosial problemləri ilə maraqlanırlar. Xüsusilə İkinci Qarabağ müharibəsindən sonra bu həssas kateqoriyadan olan vətəndaşlarımızın işlə təmin edilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə cənab Prezident tərəfindən göstəriş verilib. Onların müalicəsi ən yüksək səviyyədə həyata keçirilir. Ümumilikdə, İlham Əliyevin tapşırığına əsasən, bu günə kimi 12 500 şəhid ailələrinin üzvləri və müharibə əlilləri mənzillərlə, yaxud fərdi evlərlə təmin olunublar. Bu proses 44 günlük Vətən müharibəsindən sonra daha da genişləndirilib. Belə ki, 2021-ci ildə 3000 mənzil təqdim edilib, postmüharibə dövründə isə 3500 mənzil verilib. Eyni zamanda, müharibə əlillərinə nəqliyyat vasitələrinin, bu kompleksdə daha 200 mənzilin, eləcə də 50 avtomobilin verilməsi nəzərdə tutulub və həssas təbəqədən olan bu kimi şəxslər bu günə qədər ümumilikdə 7 400 nəqliyyat vasitəsi ilə təmin ediliblər. Ümumiyyətlə, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin yürütdüyü siyasətin ən prioritet sahələrindən biri şəhid ailələrinə və müharibə əlillərinə dövlət dəstəyinin göstərilməsidir. Müharibə iştirakçılarına göstərilən dövlət qayğısının bariz nümunələrindən biri də Prezident İlham Əliyevin "Müharibə veteranı" adı verilmiş şəxslərə Prezidentin aylıq təqaüdü təyin edilib. Həmçinin Milli Qəhrəmanlar üçün təqaüd 1500 manatdan 1800 manata çatdırılıb. "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmiş şəxslərə Prezidentin aylıq təqaüdü 2000 manat təsis edilib. Qazi və şəhid ailələri üçün bir çox güzəşt və imtiyazlar müəyyən olunub. Eyni zamanda, Prezidenti İlham Əliyevin 8 dekabr 2020-ci il tarixində "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" Fərmanı ilə "YAŞAT" Fondu təsis edilməsi dövlətin şəhid ailələrinə qarşı hər zaman xüsusi qayğısının göstəricisidir.

Göründüyü kimi, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, həm də bu katekoriyalı insanlarrı, onların ailələri ilə tez-tez görüşləri, onların problemləri ilə maraqlanması bir daha dövlətin öz vətəndaşına qayğısının göstəricisidir. Və bütün şəhid ailələri və qazilər dövlətdən belə görüb və bundan sonra da belə olacağına tam əmindir.

# Milli teatrımızı necə inkişaf etdirə bilərik?

*Teatr sənətinin əsasları hətta ilkin sivilizasiyalar yaranmazdan əvvəl ibtidai cəmiyyətdə mövcud olmuşdur. Teatr sənəti həm Şərqdə, həm də Qədim Yunanıstanda, Romada yaranmış, sonra orta əsrlər və intibah Qərbi Avropa və Rusiyada inkişafını davam etdirmişdir.*



Teatrın tarixi keçmişinə müraciət edərək qeyd edim ki, ən qədim zamanlardan müxtəlif tamaşalar, mövcud olub. Bu, müxtəlif şərtlərlə bağlıdır. İstirahətə ehtiyacı olanlar, özünü, dünyanı, insan ruhunu bilmək və kəşf etmək istəyənlər və s.. Gerçəkliyin bədii əks olunması dramatik hərəkətin köməyi ilə həyata keçirilirdi. Personajların qarşılıqlı əlaqəsi, psixoloji və ya sosial konfliktlərin açıqlanması, tamaşaçını planın həyata keçirilməsində iştiraka cəlb etmək cəhdi - teatr aksiyasının əsas nəbzidir.

Teatr fəaliyyətinin formalaşması üçün tarixi ilkin şərtlər ibtidai dövrdə meydana çıxır. Bir qayda olaraq, bu rituallar nəğmələr oxumaq, rəqs etmək, qədim musiqi alətlərində ifa etməklə müşayiət olunurdu. Rituallara tayfaların həyatı ilə birbaşa bağlı olan müxtəlif tamaşalar da daxil idi. Sehrbazın və ya Şamanın atributlarına və geyiminə mühüm rol verilir, səs effektləri yaradılır, tamaşaçılara və aksiya iştirakçılarına təsirini artırırdı. Təbiət qüvvələri, təbiət hadisələri və elementləri ilə eyniləşdirilən tanrıların şərəfinə teatrlaşdırma elementləri olan bayramlar keçirilirdi. ilk teatr tamaşaları belə yaranmağa başlamışdır.

Azərbaycanda teatr sənətinin kökləri xalqın fəaliyyəti, məişəti, şənlik və toy ənənələri, həmçinin dünyagörüşü ilə bağlıdır. Qədim tarixə malik "Sayaçı", "Novruz", "Gəvsəç" kimi mərasimlərdə teatr səhnələri canlandırırdılar. Bəs hazırda teatrlarımızdakı vəziyyət necədir?

Gənc Tamaşaçılar Teatrının aktrisası Günel Məmmədova SİA-ya açıqlamasında xalqımızın teatra olan münasibətindən və milli teatrlarımızın çatışmayan cəhətlərindən danışıb. Azərbaycan teatr tarixinə nəzər saldıqda görürük ki, müəyyən mərhələlərdə milli teatrımız zamandan geridə qalmış, dövrlə ayaqlaşmağa çətinlik çəkmişdir. Sözügedən dönəmlərdə teatrımız dünya teatr məkanında yaşanan tendensiyalardan xəbərsiz qalmış, Avropa teatrının nailiyyətlərini öyrənib tətbiq etmək imkanına malik olmamışdır.

Hər teatrın öz üslubu olaraq səhnəyə yeni nəfəs gətirir. Bu da tamaşaçılarda maraq oyadır. Nə qədər sənət var, bir o qədər də sənətdə olan insanlar əllərindən gələni edəcəklər ki, bəlli bir məktəb keçib inkişafa doğru addımlasın. Bayaq qeyd elədiyim kimi hər teatrın əlaxsus müstəqil teatrların öz üslubları və öz tamaşaçısı olur. İnkişaf olmasa müstəqil teatrlar da açılmaz, demək inkişaf var ki teatrlar da fəaliyyətini yeni tendensiyalarla davam edir.

Hər teatr öz üslubunda bəlli bir pillədədir və daim məqsədli şəkildə o pillələri addım - addım qalxaraq sənətimizi tamaşaşıya sevərək təqdim edir.

Əlbətdə, biz Moskva və ya Gürcüstan xalqı kimi, teatral xalq deyilik. Amma buna baxmayaraq son illər teatra maraq doğurdanda artıb. Mən həmişə demişəm tamaşaçının marağını artırtmaq ya qazandığın tamaşaçını itirmək istəmirsənsə ona elə bir məhsul göstərməlisən ki, onun təəssüratından çıxa bilməsin.

İnsanların teatra olan marağı necədir?

Allah qəni-qəni rəhmət eləsin, mənim ustadım əvəzolunmaz rejissor Vaqif Əsədovun bir çox tamaşalarına eyni tamaşaçı bir neçə dəfə gəlib baxırdı, niyə? Çünki tamaşa o qədər maraqlı olub ki, illər ötməsinə baxmayaraq yenə də sevərək gəlib izləyirlər. Yaxşı tamaşaya tamaşaçının marağı həmişə olacaq.

Ümumiyyətlə iş olan yerdə çatışmamazlıqlar da olacaq, səhvlər də olacaq. Amma əsas odur ki iş var və iş gedir. Qlobal çatışmamazlıqlar yoxdur təbii ki, amma məncə repertuara, quruluşa daha diqqət olunmalıdır. İnternet sürət dövrüdür və informasiya o qədərdir ki, bəzən ayaqlaşmaq çətin olur. Öz köklərimizi unutmamaq şərti ilə 21-ci əsr sürət dövrünə uyğun olaraq tamaşalar qoyulmalıdır. Nəinki teatr, elecə də kinoda ən böyük çatışmayan cəhət bəzən özümüzü unudub, "kimləri və ya kimisə" tamaşada və ya filmdə çəkirik. Var olan dəyəri, öz mentallığını, tariximizi və kökümüzü unudurlar. Onsuz da biz kimlər kimisə ola bilmərik.

Lənkəran Dövlət Dram Tetarın aktyoru Emil Tağı Razayevin sözlərinə görə isə - müstəqil teatrların yaranması və inkişafı bir qızıl gülün ömrü qədərdir, bir qızıl gül nə qədər yaşayırsa müstəqil teatların ömrü də o qədər olur. Çünki bizdə maliyyə dəstəyi yoxdur. Tamaşaçı kütləsi də olmadığına, maliyyə problemi yaşadıqlarına görə, müstəqil teatrlar özləri öz güclərinə çox uzun və davamlı fəaliyyət göstərə bilmirlər.

Tamaşaçıların sayını artırmaq mənə elə gəlir ki getdikcə daha da çətin olacaq, hətta mümkün olmayacaq. Çünki internet və sosial şəbəkələr dövründə yaşayırıq. Hər kəs evində ya ofisində oturub istədiyi mövzuda istədiyi hər şeyi irəli ötürərək baxa bilir. Kimdir daha bundan sonra gəlib saatlarla tamaşa izləyən? Amma yenə də rejissorların fərqli və gözəl qura biləcəyi tamaşalar qismən də olsa bu problemimizi həll edə bilər. İnsanların teatra olan marağına gəldikdə isə yüksək səviyyədə deyil, amma hələki bu günə çox şükr, gəlirlər, baxırlar normal səviyyədədir.

***Havar Şəfiyeva***

# "Diaspor fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub"

"Bu günkü diaspor fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur". Bu fikirləri SİA-ya açıqlamasında siyasi ekspert Vüqar Əhmədov bildirib.

Onun sözlərinə görə, istər Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyəti, istərsə də Azərbaycan diasporu yeni çağırışlara uyğunlaşaraq fəaliyyətlərini yeni tələblərə uyğun qururlar: "Bu prosesdə gənclərin xüsusi fəallığını qeyd etmək lazımdır. Son illər diaspora hərəkatına xeyli sayda gənclər gəlmişdir. Əvvəlki dövrlə müqayisədə dias por işində mobillik daha da artmış, yeni koordinasiya şuraları və Azərbaycan mərkəzləri yaradılmışdır. Diaspor nümayəndələrimiz müasir texnologiyalardan istifadə edərək yaşadıqları ölkələrin ictimai rəyinin formalaşmasında petisiyalardan və yeni lobbiçilik vasitələrindən istifadə edirlər. Eyni zamanda bu sahədə yeniliklərdən biri də Azərbaycanın strateji tərəfdaş olduğu ölkələrin diasporu ilə uğurlu əməkdaşlıq modelinin yaradılması və xarici ölkələrdə birgə hərəkət etmələridir. Bu sahədə Diasporla iş üzrə Dövlət Komitəsinin xidmətlərini qeyd etmək yerinə düşər. Bu sahədə görülən məqsədyönlü işlərin nəticəsində tam əminliklə demək olar ki, bu gün Azərbaycan diasporunun fəaliyyəti Strateji Yol Xəritəsi əsasında həyata keçirilir və milli həmrəylik ən yüksək səviyyədədir. Milli məsələlərdə Azərbaycan diasporu çox böyük həmrəylik nümayiş etdirərək milli maraqlardan çıxış edir. Azərbaycanın dövlət və milli maraqlarının müdafiəsi işində diasporun rolunun biz 44 günlük Vətən müharibəsi ərəfəsində bir daha şahidi olduq. Xüsusilə ABŞ-ın müxtəlif ştatlarında, eləcə də Avropa ölkələrinin paytaxt şəhərlərində diaspor təşkilatlarının nümayəndələri və soydaşlarımız keçirilən yürüşlərdə xüsusi fədakarlıq nümayiş etdiriblər. Şübhəsiz ki, bütün bunlar diasporumuzun vahid milli ideya ətrafında birləşməsindən xəbər verir".




***Abutel İlhamqızı***

# Ermənistana sərmayə yatıranların sonrakı aqibəti...



Erməni iqtisadçıları etiraf edirlər...

***...Əgər bu gün Ermənistanda iqtisadi artım hələ də məqbul səviyyədədirsə, deməli, bu Rusiyadan və digər respublikalardan on minlərlə köçərinin Ermənista gəlməsi və müvafiq olaraq onlara xidmət göstərən xidmət sektorunun ikirəqəmli artması ilə əlaqədardır. Deyim ki, qəbul edilən etirafdır. Amma ermənilərin başqa bir etirafı da var...***



...Təəssüf ki, eyni şeyi real sektor, yəni Ermənistanın sənaye və kənd təsərrüfatı haqqında demək mümkün deyil.

...Gəlin ondan bşlayaq ki, Rusiya-Ukrayna münaqişəsinin başlaması səbəbindən müəyyən sayda şirkət və mütəxəssislər üzləşdikləri sanksiya çətinlikləri ilə bağlı Rusiya və Belarusu tərk edərək Ermənistana kəliblər. Deyim ki, əli boş da gəlməyiblər. Hazırda ermənilər üçün, müvəqqəti də olsa, "qonşuda bişər bizə də düşər" prinsipinə uyğun şərait yaradıblar.

Zarafat bilməyin, rəsmi məlumatlara görə, təkcə aprel ayına qədər 50 minə qədər insan Ermənistana gəlib, 20 mindən çox bank hesabı açılıb, 1500-ə yaxın şirkət qeydiyyatdan keçib.

Deyim ki, elə bunların tör-töküntüləri ermənilərin "başından girib ayağından çıxar". Amma ermənilər yenə də narazıdırlar? Əslində, görmədikləri günə düşüblər. Buna baxmayaraq, aralarında yaranmış şəraitdən bəhrələnməyi məsləhət görənlər də var. Məsələn, iqtisadçı ekspert Hrant Mikaelyan yerlilərinə irad bildirir. Onları hələ də Ukrayna böhranı nəticəsində yaranan imkanlardan tam istifadə edə bilməməkdə günahlandırır. Mikaelyana görə, əgər bu gün ermənilər Ermənistana gələn Rusiya kapitalı və Rusiya vətəndaşları üçün cəlbedici şərait yaratsalar, o zaman həmən iş adamları ömürlük olara "lövbər salıb" bu ölkədə qala bilərlər.



...Amma, deyim ki, bu elə də inandırıcı görünmür. Niyə? Xatırladım ki, Nikol hakimiyyətinin ilk dövrlərində o xaricdəki erməni iş adamlarını "tarixi vətənlərinə" sarəmayə yatırmağa çağırış etmişdi. Yadımdadır, həmən çağırışa səs verib, Ermənistana sərmayə yatıranlardan biri də indi adımı unutduğum Fransada yaşayan iş adanı olan erməni qadınlarından biri idi. Deyim ki, sonradan İrəvandakı ermənilər onu elə aldatmışdılar ki, qadın Fransaya borc tapıb qaça bilmişdi.

...Onu da deyim ki, həmən məsələ sonradan xeyli danışıldı. Belə ki, həmən erməni qadın İrəvanda başına gətirilənləri nümunə kimi göstərərək, tanıdığı iş adamlarını Ermənistana sərmayə qoymamağa, sərmayə qoyanları isə ermənilərlə ehtiyatlı olmağa çağırmışdı.

...İndi, Siz deyin, erməni qadını aldadan ermənin rus və ya belarus iş admını aldatmayacağına kim zəmanət verə bilər?

...Beləliklə, qayıdaq ermənilərin hazırda tənəzzül keçirdiyi sənaye və kənd təsərrüfatı sahələrinə...

Əvvəla qeyd edək ki, Paşinyanın həmişə fəxrlə bəyan etdiyi mədənçıxarma sektoru bu gün ən ağır günlərini keçirir. Belə ki, Ermənistanın Statistika Komitəsinin son məlumatlarına görə, ötən ilin eyni dövrü ilə müqayisədə, yəni 5 ay ərzində mədənçıxarma sənayesi 12 faizdən çox itki verib. Yəni istisnasız olaraq bütün metal konsentratlarının istehsalı azalıb: mis - 16,6 faiz, sink - 8,7 faiz, molibden - 5,3 faiz və s.

Ermənilərin etirafına görə, azalma hər ay artmaqdadır. Belə ki, polad boruların istehsalı 30 faiz, alüminium folqa isə 4,7 faiz azalıb. Maraqlıdır ki, ermənilər ölkə sənayesinin guya flaqmanı olan mədənçıxarma sənayesinin bu səviyyəyə düşməsində təkcə Nikolu günahkar görürlər.

O da maraqlıdır ki, bu gün Ermənistanda iqtisadiyyatın emal sektorunda cüzi artımdan danışılsa da, amma kimya və əczaçılıq məhsulları, elektrik avadanlıqları və elektro-optik cihazların istehsalı əvvəlki illərlə müqayisədə aşağı düşdüyü etiraf edilir.

Təbii ki, belə olan halda ermənilərin ümidi məcburiyyət üzündən Ermənistana üz tutan şirkətlərə qalıb. Maraqlıdır ki, ermənilər həmən şirkətlərin uzun müddət Ermənistanda qalıb işləyəcəklərinə ümid edirlər. Deyilənə görə, guya son zamanlar Paşinyan hökuməti də həmən şirkətlərə maksimum dəstək verməyə başlayıb.

Bu arada Ermənistanın iqtisadiyyat nazirinin müavini Armen Arzumanyanın sözlərinə görə, guya ekosistem və ətraf mühit də gəlmə şirkətlərə ölkədə qalıb və inkişaf etməyə imkan verir.

"... Biz özümüzü bu və ya digər vəziyyətdən istifadə etməyə çalışan ölkə kimi mövqeləndirmək istəmirik, biz bilik tutumlu iqtisadiyyatın inkişaf etdirilməsi strategiyasını izləyirik. Ermənistan investisiya üçün əla yerdir".

... Arzumanyanın dediklərinə bəlkə də inanmaq olardı, amma Ermənistana sərmayə yatırıb sonradan müflis olan iş adamlarının sonrakı aqibəti yada düşəndə bu inam o dəqiqə yox olur.

***Ağasəf Babayev***



## Qurban

**MƏTANƏT**

***Ay dolandı il oldu, yenə də Qurban bayramı gəldi. Mübarək olsun. Allah hər kəsin bayramını qutlu etsin, bütün arzuları, diləkləri çin, canları sağ, nəsibləri xoşbəxtlik olsun.Bəli, Qurban bayramı gəlib çıxdı. Lakin hər Qurban bayramında axtardığım sualların cavabı bu Qurban da gəlib çıxmadı. Bayramdan söz düşmüşkən, biz bütün bayramlara, necə deyərlər, əl gəzdirmişik. Məsələn, götürək Novruzu, bu bayramın başına nə oyunlar qalmayıb açmayaq... Hərəmiz bildiyimizi əlavə etmişik bu bayrama ki, Novruz hər il bunlarla qarşılaşanda özü məəttəl qalır ki, İlahi, bunlar nədir? Vallah, Novruzun öz zənginliyi özünə bəsdir, onun yandançıxma, qondarma işlərə ehtiyacı yoxdur. Nədən söhbət açdığımı yəqin ki, bilməyən də yoxdur.***

Bir az da Ramazandan danışaq. Bu bir aydır, ayın fəziləti Allah yolunda oruc tutmaq, ibadət etmək, ayın sonunda da bu on bir ayın sultanını möhtəşəm bayramla yekunlaşdırmaqdır. Biz nə edirik? Ramazanla bağlı min bir kəşf ortaya çıxarırıq. Ay oruc adam bunu etməz, onu danışmaz, o yeməyi yeməz, o sudan içməz və sair. Hələ bunlar bir yana qalsın, orucu arıqlamaq üçün vasitəyə çevirmişik ki, ta bundan danışmaq istəmirəm. Çünki uzun söhbətdir.

Budur, Qurban da gəlib yetişdi. Qurbana nələr əlavə etmişik, nələri ixtisar etmişik, bax, bunlar maraqlıdır. İllərdir ki, oxuyuram, dinləyirəm, bu bayramın əsl qayda-qanunu haqqında müfəssəl məlumat ala bilmirəm ki, bilmirəm.

Mənim üçün maraqlıdır, görəsən qurban harada, necə, kim tərəfindən, günün hansı saatında kəsilməlidir, bu bir. İkincisi, qurbanlıq olaraq hansı heyvan kəsilə bilər. Axı biz Allah-təalanın İsmayıla göndərdiyi qoçla yanaşı, dana, inək, qoyun, hünduşqa, xoruz, toyuq da kəsirik. İlahi, görəsən, əslində bunların hansı kəsilməlidir? Üçüncüsü, qurban əti kimlərə verilməlidir? Bu əti hamı pulla alıb yeməlidirmi, bu, hökmən vacibdirmi? Bəs minlərlə imkansız, həmin gün ət ala bilməyən insanlar var. Onlar bu bayram günü nə etməlidirlər? Yadımdadır, haradasa 20-25 il öncə kişilər var idi ki, Qurban bayramına saxladığı mal-heyvan arasından birini qurbanlıq üçün ad edirdi, ya da ki, Qurbana bir neçə ay qalmış bir heyvan alıb kökəldirdi ki, həmin gün öz hesabına kəsib imkansız insanlara paylasan. Görəsən indi necə?Məni düşündürən digər məsələ. Qurban günü nişanlı qızlara aparılan qoçların bəzədilməsi. Qoç bizdə kişilik rəmzidir. Görəsən onun boynuna, hətta buynuzlarına da qırmızı lentin bağlanması, üzərinə qırmızı boyanın çəkilməsi, ayaqlarına qırmızı papışın geyindirilməsi nə qədər düzdür? Bunu bilən varmı? Yenə qoyuna bəzək vurmağın yeri ola bilər. Lakin yazıq qoç bu işgəncəyə necə dözür, çox maraqlıdır.

Beləliklə, maraqlıdır, biz nə üçün hər il özümüzdən bir hoqqa çıxarırıq. Niyə olanlarımızı olduğu kimi qoruyub saxlamırıq? Görəsən səbəb nədir, kimlərin əlləri var bu bayramlara edilən əlavələrdə? Nə maraq güdürlər, nəyə nail olmağa çalışırlar? Kaş ki, elə bir adam çıxardı ki, meydana məni, mənim kimi yüzlərlə insanı düşündürən bu suallara bir açıqlama gətirərdi, məsələləri çözə bilərdi.

İnşallah, o adamı gözləyirik. Çıxsın meydana, bizim bu bayramlar əslində necə olmalıdır, onların hansı günündə hansı əməllər vacibdir, hansı artıqdır, danışsın, hamımız da bilək. Bir də ki, bu hoqqaları törədənləri qınasın, onlar da xahiş edirəm eşidib hoqqabazlıqdan əl çəksinlər. Heyifdir bu bayramlarımız...



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması" istiqaməti çərçivəsində hazırlanıb.*

*Müxtəlif dinlərdə qurbanın mahiyyəti, ritualların formaları, qədimdən bu günə çatan ənənələr*

# Müxtəlif dinlərdə qurban mərasimləri: Tanrı qan istəyir, yoxsa..?

***Qurban mərasimi tarix boyunca müxtəlif mədəniyyətlərdə lap qədimlərdən tətbiq olunan bir ibadət formasıdır. Qurban mərasimləri haqda ən qədim mənbələrdə-şumer yazılarında çox maraqlı məlumatlar var. Qurbanvermə mərasimi Tanrının birliyini söyləyən bütün dinlərdə (iudaizm, xristianlıq, vaişnavizm, zərdüştlük, islam və s.) vacib prinsiplərdən biridir. Bu səbəbdən bütün dinlərdə qurban mərasimləri var. Amma təbii ki, bir-birindən fərqli formalarda.***



Bəzi dinlərdə Tanrıya canlılar da qurban edilir. Bu, həm satanizmdə olduğu kimi insan, həm də islam və iudaizmdə olduğu kimi heyvan qurbanı ola bilər. Amma digər Şərq dinlərində, əsasən zərdüştlük, induizm, vaişnavizm, buddizm, çaynizmdə Tanrıya qansız qurbanlar verilir. Bu qurbanların əsasını təbiətin nemətləri- meyvə-tərəvəz, süd məhsulları, gül-çiçək, ətirli çubuqların tüstüsü təşkil edir.




## Yəhudilikdə Tanrıya nələr qurban edilir?

Yəhudilikdə qurban insanın günahının təmizlənməsi üçün vacib hesab edilir. Onlara görə, bütün qurbanlar günahların bağışlanmasını təmin etmək üçün lazımdır. Yəhudilərin müqəddəs kitabı sayılan "Tövrat"da ənənəvi ibadətlər əsasən qurbanlara həsr edilib.

Yəhudilər həm qanlı, həm qansız qurban verirlər. Qanlı qurban dedikdə heyvan qurbanı nəzərdə tutulur, yəhudilər müsəlmanlardan fərqli olaraq xırda heyvanları- quş, toyuq kimi qurbanlar da verirlər. Amma daha cox qurbanı qansız verməyə üslünlük verirlər. Bu kimi qurbanlar əsasən şirniyyatlardan, tərəvəz və meyvələrdən verilir.

## Xristianlıqda Tanrıya hər şeyi qurban vermək olar

Xristianların qurban anlayışı yəhudilərinkindən qaynaqlandığından, onunla bir çox ortaq istiqamətləri var. Lakin xristianlar, yəhudilərin "Fısıh" kimi tanınan qurban bayramındakı ruhi məqsədin İsa Məsihin gəlişi ilə tamamlandığına inanırlar.

"İncil"də qurban qanının axıdılması ilə günahların bağışlanılmasının işarələndiyi deyilir. Amma heyvan qanı ancaq simvol xüsusiyyətini daşıdığından günahların bağışlanmasını təmin edə bilməz. Tanrının İbrahimin oğlunun yerinə göndərdiyi qoç qurbanın bir simvolu kimi qəbul olunur.

"Müqəddəs təkliflərinizi və qurbanlarınızı götürüb Rəbbin seçəcəyi yerə gedəcəksiniz. Yeməli nemətlərinizi, əti və qanı Rəbbin hüzurunda təqdim edəcəksiniz. Qurbanınızın qanı Tanrınızın sunağına axacaq. Amma əti yeyə də bilərsiniz (Qanunun Təkrarı 12:23-27).

"Bibliya"da Tanrıya hər şeyin qurban verilə biləcəyi vurğulanır, ən böyük qurban isə İsa peyğəmbərin bütün insanların günahlarının bağışlanılması üçün özünün fəda etməsi hesab olunur.

## İslam dinində qurban anlayışı nəyi ehtiva edir?

İslam dininə görə, qurbankəsmə İbrahim peyğəmbərin adı ilə bağlıdır. Dini rəvayətə görə, İbrahim bir oğlu olduğu təqdirdə onu münnətdarlıq üçün Tanrıya qurban etməyi niyyət edib. Oğlu İsmayıl dünyaya gəlir və bəlli bir yaşa çatanda Tanrı öz peyğəmbərini sınamaq üçün yuxusunda İbrahimdən sözündə durmasını və oğlunu qurban etməsini tələb edib.

İbrahim Tanrının bu əmrini tərəddüdsüz yerinə yetirməyə gedir. Amma Tanrı öz bəndəsinin sədaqətinə inandığı və onun övlad qanı axıtmaması üçün qeybdən qoç peyda edir və oğlunun əvəzində onun qurban edilməsi istənilir.



İslama görə qurban edilən heyvan Allah üçün kəsilir. "Onların nə ətləri, nə də qanları Allaha çatır. Ona sadəcə sizin düşüncə və niyyətiniz çatır". (Həcc 22/37)

İslamda "qurban payını pulla almaq və qurban əti satmaq" kimi bir anlayış yoxdur. Yəni, qurban kəsilən heyvanın əti ehtiyacı çox olanlara paylanmalıdır.

Qurban bayramında adətən qoyun qurbanı kəsilir. Amma bundan başqa, inək, dəvə, keçi də kəsilməsi mümkündür. Bəzi islamşünaslar deyir ki, toyuq, xoruz və digər bu kimi quşların qurban kəsilməsi düzgün deyil.

Lakin dinşünas-alim Nəriman Qasımoğlu isə bu sözlərlə tam olaraq razılaşmir. İlahiyyatçı deyir ki, qurban kəsmək kütləvilikdən uzaqdır: "Qurban kəsmək əmri yalnız və yalnız Həzrəti peyğəmbərə xitab edilən bir xüsusdur. Başqa müsəlmanların qurban kəsmələri bir fərz deyil, amma peyğəmbərin bir sünnətini, yəni onun qoyduğu qayda-qanunu icra etmək mütləqdir. Bu, İlahidən gələn bir əmr olub, zamana və hadisəyə görə. Tanrı indi hamıya əmr etmir ki, kəsməlisən. Ey müsəlmanlar, qurban kəsin! - deyə bir əmr yoxdur".

Bir neçə il əvvəl haqqın dərgahına qovuşmuş nüfuzlu türk ilahiyyatçı alimi Yaşar Nuri Öztürk də hesab edirdi ki, Quranda heyvan kəsmək deyə bir ibadət yoxdur: "Çünki Qurban Allaha yaxınlaşmaqdır, Ona isə qan tökərək yaxınlaşmaq olmaz". Alimin fikrincə, bu, sadəcə, adətdir və Həccə gələnlərə yemək təqdim etmək üçün edilib: "Peyğəmbərin səhabələri də heyvan kəsməyib və bunun dini əmr yox, sadəcə, adət olduğunu deyiblər. Peyğəmbər özü isə yalnız Həcc vaxtı qonaqlarına yemək vermək üçün heyvan kəsdirib".



## Vaişnavizmdə və induizmin digər qollarında qurban

Bəşəriyyətin ən qədim dinlərindən biri olan vaişnavizmə görə, Tanrının müqəddəs adlarının tərənnümü (zikr)- qurbanların ən böyüyü hesab edilir. Krişnaçılar deyirlər ki, Tanrı öz adlarına bütün transendental enerjilərini hopdurub. Bu dövrdə qurtuluş ancaq və ancaq Tanrının müqəddəs adlarının zikri ilə əldə edilə bilər.

Bakı Krişna Şüuru Cəmiyyətinin üzvü, tədqiqatçı ilahiyyatşünas Ramil Əliyev deyir ki, Qurban- insanın pis keyfiyyətlərinin Zikr odunda yandırılması anlamındadır: "Krişna şüurunda qurban əsasən meyvə-tərəvəzdən, süd məhsullarından, eyni zamanda təzə-tər çiçəklərdən və ətirli çubuqlardan (buxur) verilir. Qurban mərasimi əsasən böyük bir ocağın kənarında həyata keçirilir. Tanrını öyən, vəsf edən nəğmələr söylənir və ocağın kənarına Tanrıya təklif edilən bütün qidalar düzülür. Daha sonra Tanrı Krişnanın bu qidaları qəbul etməsi üçün müvafiq dualar-mantralar oxunur. Vaişnavlar inanırlar ki, Tanrı ona təklif edilən qidalara öz enerjisini hopdurur".

R.Əliyev deyir ki, belə qurban Allahın verdiyi bütün nemətlərə görə Ona bir növ minnətdarlıqdır: "Vaişnavların müqəddəs kitablarında- 5 min il əvvəl göndərilmiş "Baqavad-Qita"da və bütün Veda külliyyatında qurban anlayışı digər dinlərdən kifayət qədər fərqlənir. İnsanın Tanrıya öz sevgisini, vaxtını sərf etməsi, pis vərdişlərdən uzaq olması, xeyirli əməllərlə məşğul olması da bir növ qurban hesab olunur.

"Baqavad-Qita"da qurbanla bağlı belə deyilir:

"Əgər insan Mənə sevgi və sədaqətlə yarpaq, gül, meyvə və ya su təklif edərsə, Mən bunu qəbul edərəm" (9/26).

"Tanrı fədailəri yalnız qurban edilmiş qida yediklərinə görə, hər cür günahdan azad olurlar. Qidanı hissi həzz üçün hazırlayanlar isə, əslində haram qida yeyirlər"- (3/13).

Krişna Şüurunun açaryası (böyük ustadı) Baktivedanta Svami Prabhupada "Baqavad-Qitaya" yazdığı şərhlərində bu cümlələri belə izah edir: "Uca Tanrıya fədaisinin Ona sevgi ilə xidmətindən başqa heç nə lazım deyil. Əgər fədai Ona təmiz və sadə bir qida təklif edərsə, Tanrı bunu qəbul edəcək. Əsl fədai bütün həyat fəaliyyətini Tanrıya həsr etməli, hər şeyini Ona qurban verməli, daim Onu düşünməli, Onun müqəddəs adlarını zikr etməlidir".

## Buddizmdə və Caynizmdə qurban necədir?

Buddizmdə Buddaya səcdə edilir. Buddist məbədə daxil olanda əvvəlcə Buddanın murtisinə (heykəlinə) təzim edir və Buddaya çiçək, ətirli ağacların tüstüsünu (buxur yandırmaq), meyvə, tərəvəz təklif edir. Hər bir buddistin evində Buddanın kiçik heykəli-murtisi var. Buddistlərə görə qurban qansız olmalıdır. Qurban heç bir canlıya zərər vermədən həyata keçirilməlidir.

ARAŞDIRMA

*Ardı Səh. 15*

# Müxtəlif dinlərdə qurban mərasimləri: Tanrı qan istəyir, yoxsa..?



Əvvəli-Səh-14

Qurbanlar bir qayda olaraq təmiz və saf tərəvəzlər, eləcə də meyvələrdən olur. Buddanın murtisinin qarşısına qoyulan qurbanların qəbul edilməsi üçün təyin edilmiş dualar oxunur. İnanca görə təklif olunmuş qidaların sonra insanlar tərəfindən yeyilməsi xoşbəxtlikdir. Çünki o qidalara Buddanın ölməz enerjisi hopub.

Əvvəllər sərbəst şəkildə dərvişlik- zahidlik edən çaynist rahiblər, daha sonralar monastırlarda məskən saldılar. Rahib və rahibələr hər gün müqəddəs duaları oxuyaraq, ruh və bədənlərini tərbiyə edirlər. Caynistlərin ən birinci prinsipi heç bir canlını incitməməkdir, bunun üçün də onlar qəti şəkildə ət yemirlər. Elə bu səbəbdən də çaynizmdə qurban anlayışı qansız qurban deməkdir. Yəni, onlar Tanrıya meyvə-tərəvəz qurbanı, ətirli ağaclardan hazırlanmış buxurları təklif edirlər.

Qurban mərasimi hər gün yerinə yetirilir. Tanrının murtiləri önündə ilahilər, yəni ruhi nəğmələr söylənir, Ona mahnılar qoşulur. Daha sonra murtilərin qabağına qansız qurbanlar düzülür. Bu qurbanların əsasını təmiz yuyulmuş təzə meyvələr, tərəvəzlər və buxurlar təşkil edir. Daha sonra isə Tanrıya ətirli yağlar və təzə çiçək-



lər təklif olunur.

### Zərdüştülükdə Tanrıya nələr qurban verilir?

İnsanlıq tarixində ilk təktanrıçılıq dini hesab olunan Zərdüştlükdə (Mazd-Yasna) qurban mərasimi hər zaman ən vacib rituallardan biri olub. Qurban Tanrının ən güclü maddi enerjisi sayılan Od vasitəsilə verilirdi. Novruz, Xvarna kimi bayramlarda böyük tonqallar yandırılır, muğlar (maqlar) meyvə-tərəvəz, dənli bitkilər, gül-çiçək kimi təbiət nemətlərindən Oda atmaqla Tanrıya qansız qurbanlar verərdi. Bu mərasimi 15 il əvvəl qısametrajlı filmdə səhnələşdirmişik- bu linkdən baxa bilərsiniz- (https://www.youtube.com/watch?v=H54k30G8WiE )

Tanrıçılıq, şamançılıq kimi ən qədim din olan Zərdüştlükdə də qurban mərasimi humanizmə, sülhə əsaslanıb. Zərdüştlüyün müqəddəs kitabı olan "Avesta"da insan və heyvanların qurban verilməsi qətiyyətlə pislənir. Tanrıya yalnız bar verən bitkilərin məhsulları qurban edilir. Belə ki, hətta canlı olan bitkinin özünün yox, barının qurban edilməsi canlının öldürülməsinin qəbul edilmədiyini göstərir.

Nəsir Rzayevin "Möcüzəli qərinələr" kitabından bir çıxarış (Azərnəşr, 1984, səh. 35): "Avesta qanunlarına əsasən kahinlər mehrabda yanan müqəddəs odun işığında qurban (nəzir) vermə ayini keçirərkən əllərində müqəddəs "baresma çubuqlar"ı tutduqları halda, Tanrının dünyanı yaratması haqqında himn, mahnı və dualar oxuyurmuşlar".

"Mazd-Yasna"da və sonralar onun ilkin ehkamlarının bərpası məqsədilə yaranmış maniçilik, məzdəkilik, hürrəmilik, sufilik kimi dini təlimlərdə qurban mərasimləri demək olar ki, tamamilə eyni olub. Bu mərasimlərin bəzi elementləri bu gün Novruz bayramı vasitəsilə yaşamaqdadır, amma bir çoxu unudulub.

Zərdüştlük ilkin vaxtlarda qansız qurban mərasimlərinin davamlı keçirildiyi din olub, lakin sonradan ideoloji deqradasiya gedib və heyvanların da (xüsusilə atın) qurban edilməsi də rituallara daxil edilib.



### Afrika dinlərində qurbanvermə anlayışı

Afrika mənşəli dinlərdə də qurban mərasimləri müxtəlif formalarda həyata keçirilir. Nüfuzlu ilahiyyatşünas, tədqiqatçı alim Con Feyvors özünün "Ruhi döyüşçü" adlı məşhur elmi-fəlsəfi əsərində qeyd edir ki, dünyada Afrika dini ayinləri kimi təqdim edilənlərin demək olar ki, hamısı əsl Afrika ənənələrinin təhrif olunmasından başqa bir şey deyil.

İlahiyyatçı alimin fikrinə görə, hazırda planetdə mövcud olan şüur səviyyəsi ilə icra olunan canlı varlıqların qurban gətirilməsi ayinləri ilahi gəlişə səbəb ola və ilahi şüuru oyada bilməz. İncə maddi enerjiyə həssas olan adamlar elə mərasimlərdən kənar durmalıdır. Çünki, onları əhatə edən sahə mənfi enerji ilə doludur. Bu enerji insan şüurunun dərinliyinə keçə bilir.

Qurbanvermə ayinləri qədim Misirdə də əsas dini rituallardan biri olub. Con Feyvors qeyd edir ki, o zamanlar piramidalar məbəd rolunu oynayıb, onlarda od qurban gətirmələri və ayinlər icra edilib.

"Piramidalar kiçik formada olan kainata bənzəyir, onun tikintisi yerdən aşağı planetlərdən tutmuş səma planetlərinə və sonra da ruhi aləmə kimi bütün kainatın quruluşunu ifadə edir. Piramidanın zirvəsi ruhi aləmi ifadə edirdi. Zirvənin üstündə qara amanit daşı hörüyə qoyulub. Bu daş isə Uca Tanrının rəmzi idi".

Alim yazır ki, qədim inanclarda qurbanvermə mərasimi təyin edilmiş çərçivəyə salınmış şəkildə idi və müəyyən şərtlərə riayət etməklə, bilikli, elmli və eyni zamanda mömin adamlar tərəfindən keçirilirdi. "Kahin heyvanın bu həyatını əlindən alaraq, onu ya "yuxarı səltənət"ə yollayır, ya da növbəti həyatda onun daha yüksək səviyyəli bədən almasını təmin edirdi.

Beləliklə, qurbankəsmə nəticədə heyvanı azad edirdi. Bizim dövrdə isə adamlar heç bir müvafiq biliyi və şüur səviyyələri olmadan heyvanları qurban verirlər. Bu isə həm onların özləri, həm də onun ətrafında olanlar üçün arzuolunmaz mənfi nəticələrə səbəb olur".



### Satanizmdə qurban- bu, əsl dəhşətdir!

Satanistlər ayinlərində əsasən pişiyi qurban edirlər və kəsilmiş pişiyin ətini qovurub yedikdən sonra həmin pişiyin qanını da içirlər. Onlar qurbanlıq arasında fərq qoymurlar, yalnız pişik deyil, xoruz, dovşan kimi heyvanları da qurban verirlər. Çünki satanist ayinində əsas olan hər hansı bir heyvanın qurban edilməsidir, fərq etməz bu hansı heyvandır.

Lakin əksər satanistlər daha çox pişiyə üstünlük verirlər. Bunun da olduqca fərqli səbəbləri var. Bəzilərinə görə, pişik "nankor heyvan" olduğu üçün məhz onu seçmək lazımdır. Başqa bir səbəb isə asan əldə edildiyi üçündür. Üçüncü səbəb: insanlar pişiyi sevir və dəyər verirlər, insanlığı incitmək və dəyərləri heçə saymaq üçün pişiyi qurban kəsmək də satanistlərə daha çox həzz verir.

Satanistlər pişiyin qanının içənə "ölümsüzlük" veriləcəyini hesab edirlər. Əsas səbəb isə, satanist inancında şeytanın "qaniçən" kimi təsvir edilməsidir. Yəni, satanist pişiyin qanını içirsə, şeytanlaşmış olur.

Qısası, satanistlərə görə, şeytana daim canlı qurban verilməlidir. İldə bir dəfə isə gənc qızın qurban edilib qanının içildiyi barədə məlumatlar var. Çünki satanizmin əsas xüsusiyyətlərindən biri də daim şər tərəfdə qərar tutmaq və həmişə dinin qadağan etdiklərini etməkdir.

Satanistlərin insan qurban verməsi haqda mediada tez-tez məlumatlar yayımlanır. Bir neçə il qabaq Yaroslavlda üçü qız və biri oğlan olan 4 nəfərə zorla spirtli içkilər içirib sərxoş edən və daha sonra onları qurban kəsən satanistlər barədə dəhşətli bir məlumat yayılmışdı.

"Uca İblis"ə qurban vermək üçün qurbanların hər birinə 666 dəfə bıçaq yarası vurublar. Daha sonra isə böyük tonqal qalanıb, qətlə yetirilmiş gənclərin cəsədləri şaqqalanaraq tikələrə bölünüb və tonqalda bişirilərək yeyilib, qurbanların qanları isə şərab əvəzi içilib.

Bakıda da satanistlərin gizli icmasının olduğu barədə mediada məlumatlar yayılır. Sosial şəbəkələrdə bəzi gizli profillər açmış şəxslər özlərini satanist adlandırır.

* * *

Ümumiyyətlə, ən nüfuzlu ilahiyyatşünasların fikrincə, qurban anlayışı yalnız Tanrıya xidməti özündə ehtiva edir, bu səbəbdən də hər bir insan Tanrıya nəyisə qurban verə bilər. Buraya cox sey daxil ola bilər- həm maddi, həm mənəvi cəhətdən. Bu, maddi sərvətinin bir hissəsindən əl çəkmək və onu imkansızlarla paylaşmaq da ola bilər- ən böyük qurban bu sayılar. Ya da zərərli vərdişlərindən, həzzverici adətlərindən, haqsız və haram sərvət əldə etməkdən, başqalarına zərər vurmaqdan və digər mənfi xüsusiyyətlərindən əl çəkmək. Bütün dinlərin ümumi fikrinə görə, qurban yalnız saf qəlbdən, təmənnasız, sevgi və səmimiliklə təklif edildikdə Tanrı tərəfindən qəbul olunur.

Bir sözlə, Qurbanın məqsədi qan tökülməsi deyil, sahib olduğun nəyisə Tanrı yolunda qurban etməkdir.

*Elçin Bayramlı*

SƏS
9 iyul
2022-ci il

# Qurban bayramında nələrə diqqət etməliyik?



**"Qurbanlıq bayramı İsmayıl qurbanı adlanır. Ona görə ki, İbrahim Peyğəmbər (ə) yuxusunda oğlu İsmayılı qurban kəsməlidir". Bu fikirləri SİA-ya açıqlamasında İlahiyyatçı-mütəxəssis Hacı Ağasəid Yaqubov bildirib.**

Onun sözlərinə görə, İbrahim Peyğəmbər oğlunu qurban verərkən Allah tərəfindən bir qoç göndərilib: "Yəni sən mənə nə qədər bağlı olduğunu nümayiş etdirdin. Oğlunun əvəzinə bu qoçu qurban ver. Bu adət zaman keçdikcə bayrama çevrildi. Məhəmməd Peyğəmbər Mədinəyə hicrət etdikdən sonra İsmayıl qurbanını kəsmək Allah tərəfindən vacib əməl kimi buyrulmuşdur. Hansı ki o insan Həcc ziyarətinə gedəcək.

Ziyarətə gedən insanın qurban kəsməsi vacibdir. Həcc ziyarətinin özü 3 prosesə bölünür. Məkkədə olan insanların Həcc ziyarəti, 48 km məsafədən Həcc ziyarəti və uzaq məsafədən Həcc ziyarəti kimi bölünür.

Həccə getməyən insanların qurban kəsməsi onların öz ixtiyarındadır. Əgər imkanları varsa qurban kəsə bilərlər. Bu müqəddəs bayramda qurban kəsmək savabdır. Qurbanı kəsən insan müsəlman olmalıdır. Heyvanın özündə qüsur olmamalıdır. İribuynuzlu, xırdabuynuzlu, qoyun, keçi, inək, dəvə qurban kəsilə bilər ki, bunların da yaş həddi müəyyənləşdirilib. 7-8 aydan yuxarı qoyun, 1 yaşdan yuxarı 2 yaşa qədər iribuynuz, 5 yaşa qədər isə dəvə qurbanı kəsmək lazımdır. İnsanlar qurban kəsdikdən sonra onun bir hissəsini kasıb insanlarla bölüşməlidir. Qurbanlıq heyvan 3 hissəyə bölünür. Bir hissəsi kəsən ailənin, digər hissəsi fəqirlərə, digər hissəsini isə tanış insanlara paylaya bilər. Allah kəsilən qurbanları qəbul eləsin! İllərdir ki, torpaqlarımızın azad olunması üçün qurban deyirdik. Həmd olsun ki, torpaqlarımız bu gün azaddır. İnşallah ki, Qarabağda qurbanlarımızı kəsib vətən yolunda şəhid olmuş qəhrəmanlarımızın ailələrini sevindirək".

*Abutel İlhamqızı*

## Bu gün 37 dərəcə isti olacaq...

Azərbaycanda iyulun 9-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraiti əsasən yağmursuz keçəcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 20-25°, gündüz 32-37° isti, Bakıda gecə 22-24°, gündüz 34-36° isti olacaq. Atmosfer təzyiqi 756 millimetr civə sütunu, nisbi rütubət 40-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində şimal-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 24-25°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 25-26° isti olacaq.



Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 33-38° isti, dağlarda gecə 8-13°, gündüz 19-24° isti olacağı ehtimal edilir.

# "Çelsi" bu futbolçu ilə müqavilə imzalayacaq



*"Çelsi" "Mançester Siti"nin futbolçusu Natan Akeni transfer etməyə hazırlaşır. Bu barədə "The Times" məlumat yayıb. London təmsilçisi artıq "şəhərlilər"lə danışıqlarda irəliləyiş əldə edib. "Zadəganlar"ın yaxında 27 yaşlı müdafiəçi ilə müqavilə imzalayacağı gözlənilir. Qeyd edək ki, niderlandlı futbolçu ötən mövsüm Premyer Liqada 14 oyunda 2 qol vurub.*

# XƏBƏRDARLIQ: Sətəlcəm riski yayda da davam edir

*El arasında sətəlcəm kimi tanınan xəstəlik ağciyərlərin iltihablaşması nəticəsində əmələ gəlir. Ölümlə nəticələnə bilən sətəlcəmin yaranmasına müxtəlif bakteriya, virus və göbələklər səbəb olur. Bundan əlavə immunitetin zəif olması da əsas amillərdəndir.*



Həkim-terapevt Sübhan Haciyev mətbuata açıqlamasında bildirib ki, yay aylarında da bakterial pnevmoniyalara çox rast gəlinir. Burada daha çox insanların özünü soyuğa verməsi, buz kimi soyuq suyun içilməsi, tərləyib soyumalar, isti məkanda tərləyəndən sonra qəflətən soyuq məkanlara, xüsusilə də kondisioner işlədiyi soyuq otaq və evlərə daxil olub 10 dəqiqədən artıq qalanda pnevmoniya, yəni ağciyərlərin iltihabı baş verir: "Sətəlcəm adətən yuxarı tənəffüs yollarında başlayır. Həkim-terapevt qeyd edib ki, onun müalicəsində zəncəfil, bal, limon, soğan və sarımsaq ən təsirli vasitələr hesab edilir. Müalicəsi adətən 10-14 gün çəkir, 1 yaşına qədər uşaqlarda və 65 yaşdan yuxarı olanlarda immun sisteminin zəifləməsi və pozulması nəticəsində daha da ağırlaşmış formada rast gəlinir".

Soyuqdəymə əlamətləri - hərarət, tərləmə, halsızlıq, başgicəllənmə, döş qəfəsində ağrı müşahidə edilirsə və həmin hallar 48 saatdan çox davam edirsə, onda həkimə müraciət etməkdən çəkinmək lazım deyil.

## ELAN

**Zamanov Teymur Xanverdi oğluna məxsus "Şərur" MTK-dan Bakı şəhəri, Yasamal rayonu, Xiyabani 11 küçəsində yerləşən bina 7 mənzil 45 üçün verilmiş 45 nömrəli müqavilə və ödəniş çekləri itirildiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3220**